


Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 105 (8128) ÇƏRŞƏNBƏ, 15 may 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az


# Azərbaycan-Avropa İttifaqı əlaqələri uğurla inkişaf edir

## Azərbaycan - Belçika ikitərəfli münasibətləri genişlənir

### Ölkəmizin Belçikadakı səfirliyinin yeni binası istifadəyə verildi









Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 14-də Brüsseldə ölkəmizin Belçika Krallığındakı səfirliyinin yeni binasının açılışında iştirak edib.



AZƏRTAC xəbər verir ki, Azərbaycanın Belçikadakı səfiri Fuad İsgəndərov və binanın dizayneri, Belçikanın tanınmış memarı Filip Vanhereveqe dövlət başçısına görülən işlər barədə məlumat verdilər.

Brüsselin Tervuren prospektində yerləşən bina 2014-cü ildə Azərbaycan Respublikasının Belçika Krallığındakı səfirliyi tərəfindən alınıb, daxili əsaslı təmir edilib, fasadı isə yenilənib. Bina Avropa təsisatlarına çox yaxın məsafədə, Parmentier parkının yaxınlığında, çoxsaylı diplomatik missiyaların yerləşdiyi prospektdədir.

Azərbaycan Prezidenti binanın rəmzi açılışını bildirən lenti kəsdi.

Dövlət başçısı binada yaradılan şəraitlə tanış oldu. Binanın girişi dövlət rəmzləri ilə bəzədilib. Burada dünyanın müxtəlif şəhərlərinin məşhur muzeylərində saxlanılan Azərbaycan xalçalarının fotoları, həmçinin 1870-ci il Təbriz xalçası nümunəsində əllə toxunmuş xalça da var. Daxili tərtibat işləri zamanı Qobustan qayaüstü rəsmlərinə də yer ayrılıb. Binanın birinci və ikinci mərtəbələri səfirliyin iş otaqları üçün nəzərdə tutulub. Burada səfirin, müşavirlərin və digər əməkdaşların, həmçinin konsulluq xidmətinin işçilərinin otaqları bütün zəruri avadanlıqla təchiz olunub. Bir sözlə, əməkdaşların səmərəli fəaliyyəti üçün binada hər cür şərait var. Binada həmçinin səfirlik işçilərinin mənzilləri yerləşir.

Dövlət başçısı səfirliyin əməkdaşları ilə xatirə şəkli çəkdirdi.

❖ ❖ ❖

Mayın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belçika Krallığına işgüzar səfəri başa çatdı.

## Yeni inkişaf istiqamətləri müəyyənləşir

### İlham Əliyevin Brüssel səfəri Azərbaycan-Avropa İttifaqı münasibətlərinə müsbət töhfəsini verdi

Müxtəlif maraqların toqquşduğu Cənubi Qafqaz regionunda müstəqil xarici siyasət xətti yürüdən Azərbaycan bütün regional məsələlərə münasibətdə beynəlxalq norma və prinsiplərə uyğun ayrı-ayrı dövlətlər və təşkilatlarla bərabərhüquqlu, qarşılıqlı hörmətə əsaslanan əlaqələrə üstünlük verir. Rəsmi Bakının əməkdaşlığın inkişafına böyük önəm verdiyi nüfuzlu təşkilatlardan biri də Avropa İttifaqıdır.




Beynəlxalq təşkilatların işində fəal iştirak edərək milli maraqlarını qlobal siyasətdə müdafiə etməklə üzləşdiyi təhlükəsizlik problemlərinə tərəfdaş dövlətlərin diqqətini çəkən Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığı Avratlantik məkana inteqrasiya kontekstində inkişaf etməkdədir. Bu qurumla münasibətlərin sağlam təməl əsasında inkişafının nəticəsidir ki, ölkəmiz hazırda Aİnin bir çox proqramlarında fəal iştirak edir və onun mühüm tərəfdaşı kimi qəbul olunur.

Prezident İlham Əliyev tərəfindən yürüdülən müstəqil xarici siyasət Avropa İttifaqı ölkələri ilə bərabərhüquqlu, yaxın təmaslara söykənən harmonik münasibətlərin qurulmasına əsaslanır. Avropa və Asiyanın kəsişmə nöqtəsində yerləşən Azərbaycanın geostrateji mövqeyi bu quruma üzv dövlətlərin də ölkəmizlə siyasi və iqtisadi münasibətləri inkişaf etdirməyə marağını daha da artırıb.

Respublikamız hələ 1996-cı ildən bu təşkilatla tərəfdaşlıq və əməkdaşlıq sazişi, daha sonra 2004-cü ildən Avropa qonşuluq siyasəti və nəhayət, 2009-cu ildən "Şərq Tərəfdaşlığı" Proqramı çərçivəsində əməkdaşlıq edir. Avropa İttifaqının 24 üzv ölkəsi ilə ikiqat vergitutmanın aradan qaldırılması, 18 üzv ölkə ilə sərmayələrin təşviqi və qarşılıqlı qorunması sazişləri, 9 üzv ölkə ilə Strateji Tərəfdaşlıq bəyannamələri imzalanıb, 16 üzv ölkə ilə 17 Hökumətlərarası Komissiya və İşçi Qrupu, İdarəetmə Komitəsi fəaliyyət göstərir. Azərbaycanda 1500-dən çox Avropa İttifaqı ölkələrinin şirkəti fəaliyyətdədir. Avropa İttifaqının bir sıra ölkələri (Almaniya, Fransa, Avstriya, İtaliya, Yunanıstan, Polşa və s.) ilə Azərbaycan arasında ticarət palataları mövcuddur.

2018-ci ilin iyul ayının 11-də isə Brüsseldə Prezident İlham Əliyev və Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun iştirakı ilə tərəflər arasında paraflanan "Tərəfdaşlıq prioritetləri"nin Azərbaycan-Avropa İttifaqı tərəfdaşlıq əlaqələrinin gələcək inkişafı üçün yeni imkanlar açacağını bir daha müəyyənləşdirdi. "Tərəfdaşlıq prioritetləri" 2018-2020-ci illəri əhatə edir və bərabərhüquqlu, qarşılıqlı xarakter daşıdığını özündə əks etdirir. Bu sənəd Avropa İttifaqı və Azərbaycan arasında ikitərəfli gündəliyə yeni təkan verdi.

May ayının 13-də Prezident İlham Əliyevin Belçikaya işgüzar səfəri çərçivəsində Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskla keçirdiyi görüş, Şərq Tərəfdaşlığı ölkələrinin dövlət və hökumət başçılarının şərəfinə verilən şam yeməyi zamanı dövlət başçısının söylədiyi fikirlər əlaqələrin inkişafına təkan verməklə yanaşı, yeni imzalanacaq sazişlə bağlı aparılan danışıqlara müsbət töhfəsini verdi.

Prezident bir daha qətiyyətli mövqeyini ortaya qoyaraq Azərbaycan həqiqətlərini açıqladı. Dövlət başçısı Azərbaycanın "Şərq Tərəfdaşlığı" Proqramında iştirak edən fəal ölkələrdən biri olduğunu deyərək vurğuladı ki, ölkəmiz Avropa İttifaqına üzv dövlətlərlə də sıx əlaqələrə malikdir. Avropa İttifaqı Azərbaycanın əsas ticarət tərəfdaşıdır və təşkilatın üzv dövlətləri ölkəmizdə aparıcı sərmayəçi qismində çıxış edirlər.

Bu gün Avropa İttifaqı xarici ticarət dövriyyəmizdə təxminən 42 faizlik paya malik olmaqla, Azərbaycanın əsas ticarət tərəfdaşıdır. Həmçinin təşkilat Azərbaycanda ən böyük investordur. Azərbaycan iqtisadiyyatına investisiya yatıranlar arasında Avropa İttifaqı ölkələri üstünlük təşkil edir.

Keçirilən görüşlər zamanı İlham Əliyev bir daha xatırlatdı ki, ötən il Brüsseldə Azərbaycan və Avropa İttifaqı arasında paraflanmış "Tərəfdaşlıq prioritetləri" sənədində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünə və suverenliyinə bir daha dəstək ifadə olunub.

Düşünülmüş və məqsədyönlü siyasəti ilə dünyanın siyasi liderləri arasında böyük nüfuz qazanmış İlham Əliyev bir daha Azərbaycanla Avropa İttifaqı arasındakı münasibətin çox uğurla inkişaf etdiyini və ölkəmizin bu əlaqələrin genişlənməsinə böyük önəm verdiyini söylədi.

Bu gün həqiqətən də Azərbaycan Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verən ölkədir. Azərbaycanın təşəbbüsü və iştirakı ilə reallaşdırılan enerji layihələrində hasilatçı, tranzit və istehlakçı ölkələrin maraqları onların əməkdaşlığı çərçivəsində birgə şəkildə qorunur.


*Ardı 2-ci səh.*




## Özünüməşğulluq - işsizlikdən kiçik ailə biznesinə keçmək imkanı

### İlham ƏLİYEV: "Azərbaycanda özünüməşğulluq proqramının həm məşğulluq, həm iqtisadi inkişaf, həm də istehsal baxımından çox böyük gələcəyi var"

1991-ci ilin dekabrında dünyanın nəhəng və söz sahibi ölkələrindən biri - SSRİ-nin süqutu ilə faktiki müstəqilliyinə qovuşan Azərbaycanın da seçdiyi liberal bazar iqtisadiyyatının sübuta ehtiyacı olmayan üstünlükləri ilə bərabər, sosial bərabərsizlik kimi hamı tərəfindən qəbul edilməyən cəhəti də var.

Xüsusən iqtisadiyyatı və ideoloji təbliğatı sosial bərabərlik üzərində qurulan keçmiş sovetlər birliyində yaşamış adamlar üçün bu cəhət indi də aktualdır. Baxmayaraq ki, o, sosial ideologiya olaraq ölkənin, yaxud dövlətin özü kimi 28 ilə yaxındır süquta uğramışdır, həmin təbəqə hələ də eyni cür pis dolanışığı müxtəlif səviyyədə yaxşı yaşamaqdan üstün tutur.


*Ardı 4-cü səh.*


## Sabitlik böyük sərvətdir

Münaqişələrin, böhranların səngimədiyi müasir dünyamızda öz yolu ilə inamla addımlamaq, inkişaf etmək və uğur qazanmaq hər ölkəyə nəsib olmur. Diqqət yetirsək, planetin müxtəlif yerlərində bir sıra dövlətlərin və onların xalqlarının müxtəlif səbəblərdən əziyyət çəkdiklərini, düşdükləri böhranlardan xilas ola bilmədiklərini görərik. Hər ötən gün geosiyasi mübarizənin, ölkələrin bir-birinin işinə kobudcasına qarışmasının və hərbi ritorikanın yüksəlməsi ilə yadda qalır.

Azərbaycanda isə vəziyyət fərqlidir. Müstəqilliyinin 28-ci ilini yaşayan respublikamız sürətlə inkişaf edir, qüdrətlənir və beynəlxalq aləmin nüfuzlu üzvü kimi öz mövqeyi və siyasəti ilə fərqlənir. Bu baxımdan ölkəmizin böyük inkişaf yolu keçməsi müstəqilliyimizin ən böyük uğurlarından biridir. Həyata keçirilən düşünülmüş, təmkinli, lakin olduqca çevik və qətiyyətli, uzaqgörən siyasət nəticəsində ölkəmiz mühüm siyasi-iqtisadi və sosial uğurlara nail olub. Azərbaycan qlobal maliyyə böhranlarını qısa müddətdə inkişafla əvəzləyib. Bu gün respublikamız siyasi və makroiqtisadi baxımdan sabit, davamlı və dayanıqlı iqtisadi inkişafa malik ölkə, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında etibarlı tərəfdaş, qlobal enerji və nəqliyyat layihələrinin iştirakçısı, beynəlxalq tədbirlər məkanı kimi tanınır. Artıq kosmos dövlətinə çevrilən, bir neçə il əvvəl BMT Təhlükəsizlik Şurasına seçilməklə iki il dünyanın ən ali təşkilatında uğurlu fəaliyyət göstərən, yerləşdiyi bölgənin imkanlarından səmərəli istifadə etməklə uğurlarını ildən-ilə sürətlə artıran Azərbaycan həqiqətən inkişaf fenomeninə çevrilib.


*Ardı 2-ci səh.*




## Çəkilən zəhmət əvəzsiz qalmır

İndi təbiətin elə çağıdır ki, kənd sakinləri günün çox hissəsini əkin sahələrində keçirirlər. Onlar bol məhsulun bünövrəsini qoyur, əvvəlki ilin uğurlarını yeniləmək üçün əllərindən gələni əsirgəmirlər.

Şəmkir rayonunda da belədir. Onlar da bol məhsul əldə etmək üçün var qüvvələri ilə işləyirlər. Rayon icra hakimiyyətində söhbətimiz isə son illər qazanılan uğurlarla bağlı oldu. Dedilər ki, III Dövlət Proqramı uğurla həyata keçirildi. Bütün sahələrdə böyük nailiyyətlər qazanıldı. Keçən il rayonda 611 milyon 559 min manatlıq, əvvəlki illə müqayisədə 1,9 faiz çox məhsul istehsal edildi. İl ərzində 4204 yeni iş yeri açıldı. Onun da 1609-u daimidir. Sahibkarlar tərəfindən ümumi dəyəri 108 milyon 601 min manat olan 254 layihəyə 53 milyon 131 min manat dəyərində investisiya qoyuldu.


*Ardı 5-ci səh.*


## Rusiya-Ermənistan münasibətləri daha da gərginləşib

### Paşinyan Rusiya bayrağını təhqir edəni yüksək vəzifəyə təyin etdi

Rusiya və Ermənistan arasında münasibətlərin son bir il ərzində kifayət qədər pisləşməsi, iki ölkənin əlaqələrinin kəskin ziddiyyətlər mərhələsinə qədəm qoyması müşahidə olunmaqdadır. Bütün bunların kökündə dayanan başlıca amil isə baş nazir Nikol Paşinyanın Rusiyanın mövqeyinə zidd addımlar atması, komandasında Moskva əleyhinə olan şəxslərin çoxluq təşkil etməsidir. Məhz belə bir vaxtda Yerevanda Rusiyanın heç də xoş qarşılamayacağı daha bir addım atılıb. Belə ki, Rusiyanın dövlət bayrağını açıq-aşkar tapdalayan David Gevorkyan Araqason vilayətinin qubernatoru təyin edilib.

Bayraqla bağlı hadisə Rusiyanın Yerevandakı səfirliyinin binasının qarşısında keçirilən etiraz aksiyası zamanı baş verib. Ermənistan parlamentindəki "İşıqlı Ermənistan" müxalif fraksiyasının başçısı Edmon Marukyan bununla bağlı hakimiyyətdən izahat tələb edib: "Bu günlərdə mediada Araqason vilayətinin qubernatorunun etiraz aksiyasında iştirak edib Rusiyanın dövlət bayrağını yandırmaq cəhdi barədə məlumatlar yayılmışdı.


*Ardı 4-cü səh.*

# Akademik Vladimir Volobuyevin 110 illiyinin qeyd edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2019-cu ilin iyul ayında Azərbaycan Respublikası Elmlər Akademiyasının həqiqi üzvü, SSRİ Elmlər Akademiyasının müxbir üzvü, iki dəfə SSRİ Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, kənd təsərrüfatı elmləri doktoru, professor Vladimir Rodionoviç Volobuyevin anadan olmasının 110 illiyi tamam olur.

Akademik Vladimir Volobuyev torpaqların meliorasiyası, geomorfoloji xəritələrin tərtibi, torpaqla iqlimin qarşılıqlı əlaqəsi və torpaq ekologiyasına dair böyük nəzəri-təcrübi əhəmiyyətə malik sanballı araşdırmalarının nəticələri kimi müəyyən etdiyi prinsip və apardığı hesablamalarla, irəli sürdüyü nəzəriyyə və işləyib hazırladığı təsnifatlarla Azərbaycanda torpaqşünaslığın inkişafına böyük töhfələr vermişdir. Onun rəhbərliyi altında yetişən yüksək ixtisaslı kadrlar tərəfindən respublikada torpaqşünaslıq üzrə çox sayda əsaslı tədqiqat işləri uğurla yerinə yetirilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Azərbaycan torpaqşünaslıq elminin inkişafında xüsusi xidmətlərini nəzərə alaraq görkəmli alim Vladimir Rodionoviç Volobuyevin anadan olmasının 110-cu ildönümünün qeyd olunmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Milli Elmlər Akademiyası akademik Vladimir Rodionoviç Volobuyevin 110 illiyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 may 2019-cu il*

# Milli Məclisin Sədri Qazaxıstanın ölkəmizdəki səfiri ilə görüşüb



Mayın 14-də Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədov Qazaxıstan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Beybit İsabayev ilə görüşüb.

Milli Məclisin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Sədr bildirib ki, ölkələrimiz müstəqilliklərini bərpa etdikdən sonra xalqlarımız arasında tarixən mövcud olan əməkdaşlıq keyfiyyətcə yeni səviyyəyə yüksəlib: "Bu gün ölkələrimiz strateji tərəfdaşdırlar. Əlaqələrimizin bu səviyyəyə yüksəlməsinin əsası Azərbaycanın ümummilli lideri Heydər Əliyev və Qazaxıstanın birinci prezidenti Nursultan Nazarbayev tərəfindən qoyulub. Münasibətlərimiz bu gün də dövlət başçıları tərəfindən müvəffəqiyyətlə davam etdirilir.

Azərbaycan Qazaxıstan ilə mövcud əməkdaşlığı daha da dərinləşdirmək niyyətindədir. Orta Asiyanın bu ölkəsi əldə etdiyi nailiyyətlərlə dünya birliyində öz layiqli yerini tutub. Ölkənin bu uğurlara imza atması aparılan məqsədyönlü siyasətin nəticəsidir. Bu gün Qazaxıstan öz yeni prezidentini seçməyə hazırlaşır. Hakimiyyətin dinc yolla ötürülməsinin aparılan daxili və xarici siyasətin davam etdirilməsinə, sabitliyin qorunmasına xidmət edəcəyi heç kimdə şübhə doğurmur. Namizədlər arasında mənim həmkarım, vaxtilə Qazaxıstan Senatına rəhbərlik etmiş Qasım-Comərd Tokayev də var. O, Qazaxıstan Parlament Senatının spikeri olduğu dövrdə dəfələrlə Azərbaycana səfər edib. Biz müxtəlif beynəlxalq tədbirlərdə mütəmadi olaraq görüşmüşük. Qarşılıqlı hörmətə və anlaşmaya əsaslanan münasibətlər sayəsində ölkələrimizin parlamentləri arasında konstruktiv səmərəli əməkdaşlıq formalaşıb. Qarşıdakı prezident seçkilərində Qazaxıstan xalqına uğurlar arzulayıram. İnanıram ki, müdrik Qazaxıstan xalqı düzgün seçim edərək inkişafa, sabitliyə və firavanlığa səs verəcək".

Görüşdə tərəflər hər iki ölkənin qanunvericilik orqanları arasında əməkdaşlıq məsələlərini müzakirə edib, parlamentlərarası dostluq qruplarının fəaliyyətinin gücləndirilməsinin əhəmiyyətini vurğulayıblar.

Söhbət zamanı Azərbaycan parlament nümayəndə heyətinin bu ilin sentyabrında Nur-Sultan şəhərində keçiriləcək Avrasiya ölkələri parlament spikerlərinin 4-cü müşavirəsində iştirakı ilə bağlı məsələlər nəzərdən keçirilib.

Görüşdə Türkdilli Ölkələrin Parlament Assambleyasının payızda Bakı şəhərində keçirilməsi nəzərdə tutulan növbəti iclasının vaxtı və təşkilatı məsələlər müzakirə olunub.

Görüş zamanı Beybit İsabayev Milli Məclisin Sədrinə Qazaxıstandakı daxili siyasi proseslər, qarşıdakı prezident seçkiləri və digər məsələlər barədə məlumat verib.

# "Fuji Optical" şirkətinin Azərbaycandakı xeyriyyəçilik fəaliyyəti əsl humanizm nümunəsidir



Mayın 14-də Azərbaycan Respublikasının Nazirlər Kabinetində Yaponiyanın "Fuji Optical" şirkətinin rəhbəri Akio Kanainin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş olub.

AZƏRTAC xəbər verir ki, görüşdə Baş nazirin müavini Əli Əhmədov "Fuji Optical" şirkətinin ölkəmizdə həyata keçirdiyi xeyirxah missiyaların yüksək qiymətləndirildiyini söyləyib. O, minlərlə qaçqın, məcburi köçkün və aztəminatlı ailəyə yüksəkkeyfiyyətli eynəklərin paylanıldığını, onların ödənişsiz göz müayinəsi xidmətlərindən faydalandığını, bunun əsl humanizm nümunəsi olduğunu vurğulayıb.

Görüşdə qonaqlara Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə də məlumat verilib.

Akio Kanai Azərbaycanda bu xeyirxah missiyanı həyata keçirməkdən məmnunluğunu bildirib. O, ölkəmizdə bu kimi xeyriyyə fəaliyyətlərini davam etdirəcəklərini diqqətə çatdırıb. A.Kanai missiyanın ərsəyə gəlməsində köməyi olan hər kəsə, o cümlədən qonaqpərvərliyə görə Azərbaycan hökumətinə və xalqına minnətdarlığını bildirib.

# Sabitlik böyük sərvətdir

*Əvvəli 1-ci səh.*

Bütün bu uğurlar və bütövlükdə Azərbaycanın hazırkı reallıqları ulu öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyasının nə dərəcədə mükəmməl xarakter daşıdığını təsdiq edir. Həm də bir daha aydın olur ki, bu siyasət yeni çalarlarla daha da zənginləşdirilərək dövrün tələblərinə uyğun formada Prezident İlham Əliyev tərəfindən böyük müvəffəqiyyətlə davam etdirilir.

Əldə etdiyimiz bütün uğurların müxtəlif amillərlə yanaşı həm də sabitliklə və siyasi-ictimai asayişin təmin olunması ilə birbaşa bağlı olması özünü tarixi təcrübədə təsdiq edən mühüm faktordur. Bu gün bir sıra ölkələrin özünün ən yüksək inkişaf dövrünü yaşaması məhz sabitliyin və qanunçuluğun aliliyi sayəsində mümkün olub. Lakin bizi bu günlərə gətirən yollar heç də həmişə hamar olmayıb. Ən azından müstəqilliyimizin ilk illərində hakimiyyətdə olan qüvvələrin başıpozuq fəaliyyətlərinin nəticəsində Azərbaycanda cinayətkarlığın və təhlükəsizliyə təhdidlərin baş alıb getməsi çoxunun yaddaşında dərin iz buraxıb. Yalnız ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ölkədə sabitlik bərqərar edildi, cinayətkarlığa qarşı mübarizə gücləndi, ictimai-siyasi duruma təhlükə doğuran zərərli meyillərə, qanunsuz silahlı birləşmələrə qarşı uğurlu və təxirəsalınmaz tədbirlər həyata keçirildi.

Son 16 ildə ölkəyə rəhbərlik edən Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasətinin nəticəsi olaraq ölkəmizdə sabitlik və əmin-amanlıq möhkəmlənib, Azərbaycan beynəlxalq birliyin ən firavan subyektlərindən birinə çevrilib. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 15 illiyinə həsr olunmuş təntənəli mərasimdə Pezident İlham Əliyev sabitliyin hər bir ölkə üçün xüsusi əhəmiyyət daşıdığını bildirib: *"Sabitlik hər bir ölkə üçün xüsusi əhəmiyyət daşıyır. Dünyaya, beynəlxalq mənzərəyə baxın. Harada ki sabitlik pozulur ölkələr geriyə gedir, idarəolunmaz vəziyyətə düşür, ölkələrdə xoşagəlməz proseslər başlayır, xarici təsir artır, daxili çəkişmələr baş verir və ölkələr öz gələcəyini itirir. Son illər ərzində sabitliyi pozulan ölkələrin bugünkü mənzərəsinə nəzər salın. Nə görəcəyik? Müharibə, qardaş qanının tökülməsi, dağılmış şəhərlər, sıradan çıxmış infrastruktur, iflic vəziyyətə düşmüş sənaye, milyonlarla qaçqın-köçkün, çadır şəhərcikləri, o şəhərciklər ki biz onlardan 2007-ci ildə xilas olmuşuq. Mən o vaxt seçkiqabağı söz vermişdim ki, 5 il ərzində bir dənə də olsun çadır şəhərciyi qalmayacaq. Bunu biz 4 ilə etdik. Yəni sabitliyin pozulması buna gətirib çıxarır. Hər bir insan bilməlidir ki, sabitlik böyük sərvətdir. Biz bunu çox böyük fədakarlıq göstərərək əldə etmişik".*

Bu gün regionumuzda və ətraf bölgələrdə xoşagəlməz hadisələr baş verməkdədir. Dünyanın bir sıra nöqtələrində, eləcə də Yaxın Şərqdə gedən proseslər sabitliyin nə qədər böyük dəyər olduğunu təsdiqləyir. Bəzi güclər öz maraqları naminə bəzi ölkələrin daxilində vəziyyəti gərginləşdirir, vətəndaş müharibəsinə, qanlı aksiyalara səbəb olurlar. Ərəb ölkələrindəki qarşıdurmalar səngimək bilmir, İraq və Suriyada terrorçular hələ də meydan sulayır. Bu ölkələrin hər biri dini, etnik zəmində ərazi bütövlüyünün parçalanması təhdidi ilə qarşılaşıb. Onların xalqları, günahsız insanlar çox ağır məhrumiyyətlərlə üz-üzə qalaraq humanitar fəlakətə düçar olublar. Bütün bunlar bir daha bu reallığı təsdiqləyir ki, hər bir cəmiyyətin qarşısında duran ən mühüm vəzifələrdən biri məhz ictimai-siyasi sabitliyin təmin edilməsidir. Ona görə Azərbaycanda təmin olunmuş sabitlik dövlətimizin, xalqımızın ən mühüm nailiyyətlərindən biridir.

Azərbaycanda bərqərar olunmuş ictimai-siyasi sabitlik ölkəmizi sevməyən bir sıra xarici dairələrin və onların öz içimizdəki əlaltılarının maraqlarını elə indinin özündə də təmin etmir. Ona görə antiazərbaycançı adlandırdığımız bu şəbəkənin ayrı-ayrı elementləri Azərbaycanda sabitliyin pozulması üçün daim müxtəlif ssenarilər hazırlayıb və ayrı-ayrı vasitələrlə həyata keçirməyə cəhd edirlər. Ancaq onların məkrləri güclü Azərbaycan dövlətçiliyinin, xalq-hakimiyyət vəhdətinin qarşısında həmişə puça çıxıb, bütün bəd niyyətləri gözlərində qalıb. Ölkədə təhlükəsizliyimizi təhdid edən planlara qarşı vaxtında uğurlu önləyici tədbirlər həyata keçirilir. İstənilən mənfur niyyətin qarşısını almaq üçün Azərbaycan kifayət qədər imkanlara və qabaqlayıcı tədbirlərə malikdir.

Azərbaycan hər baxımdan dünyanın ən təhlükəsiz diyarlarından biridir. Respublikamız sabitliyin yüksək səviyyədə təmin edildiyi ölkələr sırasındadır. Azərbaycanda ictimai-siyasi sabitlik bundan sonra da dönmədən qorunacaq və möhkəmlənəcək. Heç bir antimilli qrup bu sabitliyi sarsıtmaq iqtidarında deyil.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Bakıda Beynəlxalq Sosial Təminat Assosiasiyasının Avropa Regional Sosial Təminat Forumu işə başlayıb





Mayın 14-də Bakıda Beynəlxalq Sosial Təminat Assosiasiyasının (BSTA) Avropa Regional Sosial Təminat Forumu işə başlayıb. Üç gün davam edəcək forumda BSTA-dan, digər beynəlxalq qurumlardan və 35 ölkədən nümayəndələr iştirak edirlər.

AZƏRTAC xəbər verir ki, forumun açılışında Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınan Azərbaycanın Avropa qurumları ilə əməkdaşlığının daim inkişaf etdiyini vurğulayıb. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan islahatların sosial təminat sahəsində də uğurlu nəticələr verdiyini, sosial müdafiə sisteminin gücləndirilməsi və müasir, şəffaf iş üsulları üzərində qurulması istiqamətində mühüm addımlar atıldığını deyib.

Ə.Əhmədov aparılan islahatlarda Avropanın müvafiq təşkilatları, qitənin ölkələri ilə əməkdaşlığa, fəal təcrübə mübadilələrinə xüsusi önəm verildiyini bildirib. O, növbəti Avropa Regional Sosial Təminat Forumunun Azərbaycanda keçirilməsi qərarına görə BSTA-ya minnətdarlıq ifadə edib, ötən dövrdə mötəbər beynəlxalq tədbirlərə uğurla evsahibliyi edən Azərbaycanda bu forumun da yüksək səviyyədə təşkil olunduğunu deyib.

BSTA-nın prezidenti Yoakim Bröyer bu gün Avropa ölkələrinin sosial təminat sistemlərində idarəçilik mexanizmlərinin əsas çağırışlara uyğun təkmilləşdirilərək mükəmməl şəkildə qurulması, problemlərin həll olunması üçün aparılan islahatlarda qarşılıqlı əməkdaşlıq mühitinin, qabaqcıl təcrübə mübadiləsinin əhəmiyyətini vurğulayıb. O, hazırkı forumun da bu məqsədə xidmət etdiyini və Avropa məkanının sosial təminat sistemlərindəki aktual məsələlərə innovativ yanaşmaların təqdim edilməsi və bölüşülməsi üçün əlverişli imkan yaratdığını deyib. Y.Bröyer Azərbaycanda əldə olunan sosial-iqtisadi nailiyyətləri, sosial sahədə innovativ yenilikləri maraqla izlədiklərini bildirib. BSTA prezidenti ölkəmizin bu foruma layiqli şəkildə evsahibliyi etməsindən razılıq ifadə edib, buna görə Azərbaycan hökumətinə təşəkkürünü bildirib.

Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev 15 ildir ki, BSTA ilə səmərəli əməkdaşlıq həyata keçirən ölkəmizin ötən dövrdə bu təşkilatın bir sıra tədbirlərinə evsahibliyi etdiyini deyib. O, bu dəfə BSTA-nın Avropa Regional Sosial Təminat Forumu kimi yüksək səviyyəli mötəbər beynəlxalq tədbirin Azərbaycanda keçirilməsinin fəxr hissi doğurduğunu bildirib. Nazir Avropa məkanında sosial təminatın inkişafına, gələcək sosial təhlükəsizliyin formalaşmasına nail olunması üçün birgə müzakirələrin və təcrübə mübadilələrinin aparılması baxımından forumun əhəmiyyətini qeyd edib.

S.Babayev Prezident İlham Əliyevin uğurlu sosial inkişaf kursuna uyğun olaraq ölkədə dinamik iqtisadi inkişafın təmin edilməsi şəraitində əldə edilən sosial uğurları, həmçinin son aylarda həyata keçirilən mühüm islahatları, atılan əhəmiyyətli addımları diqqətə çatdırıb. O, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsünün nəticəsi olan Dayanıqlı və Operativ Sosial Təminat (DOST) konsepsiyasını qeyd edib. Azərbaycanın sosial sahədə özünəməxsus yeni innovativ təcrübəsi - yeni yaradılan DOST Agentliyi və ilk "DOST" mərkəzi, 126 növdə sosialyönümlü xidmətin "bir pəncərə"dən, tam şəffaf və operativ, nəzakətlilik və son nəticədə vətəndaş məmnunluğuna nail olunması prinsipi ilə təqdim edilməsinə imkan verən "DOST" mərkəzləri şəbəkəsinin genişləndirilməsi üçün işlərin aparıldığını diqqətə çatdırıb.

Nazirliyin Mərkəzləşdirilmiş Elektron İnformasiya Sistemində 18 altsistemin yaradıldığını deyən S.Babayev "E-sosial" internet portalı, "Məşğulluq" altsistemi, cari ilin əvvəlindən ölkədə ilk proaktiv xidmət kimi tətbiqinə başlanan avtomatlaşdırılmış pensiya təyinatı mexanizmi haqqında məlumat verib. Artıq on min nəfərə elektron qaydada pensiya təyin olunduğunu, bu ilin əvvəlindən "İşsizin DOSTu" proqramının bu günə kimi 36 min nəfər işsizin əmək müqaviləsi ilə ödənişli ictimai işlə təminatına imkan verdiyini deyib.

Nazir bu ilin ötən dövründə minimum pensiyaların və minimum əməkhaqqının 40 faiz, sosial müavinət və təqaüdlərin orta hesabla 100 faiz artırıldığını qeyd edib. Şəhid ailələrinə qayğının artırılması, onların birdəfəlik ödənişlə təminatı, qaçqın və məcburi köçkünlərin müavinətlərinin, tələbələrin təqaüdlərinin artırılması, devalvasiyanın təsirlərinin aradan qaldırılması, fiziki şəxslərin problemli kreditlərinin həlli sahəsində atılan əhəmiyyətli addımları diqqətə çatdırıb. O, təkcə cari ilin ötən dövründə reallaşdırılan uğurlu sosial paketin 3 milyon insanın rifahına ciddi dəstək olduğunu bildirib.

S.Babayev sosial təminat sistemi qarşısında dayanan çağırışlara uyğun islahatların davam etdirildiyini, pensiya sisteminin yeni inkişaf konsepsiyasının hazırlandığını, eləcə də sosial müavinət və əlilliyin qiymətləndirilməsi, reabilitasiya, əmək müfəttişliyi sistemlərinin, məşğulluq xidmətlərinin təkmilləşdirilməsi sahələrində aparılan islahatları, nazirlik yanında Dövlət Sosial Müdafiə Fondunun gəlirlərindəki artım tempini qeyd edib. Nazir, həmçinin əlilliyi olan şəxslərin sosial müdafiəsi işlərindən bəhs edib, mütərəqqi beynəlxalq yanaşmalar da nəzərə alınmaqla "Əlilliyi olan şəxslərin hüquqları haqqında" yeni qanunun qəbul edildiyini diqqətə çatdırıb. Şəhid ailələri və müharibə əlillərinin mənzillə, müharibə əlillərinin minik avtomobili ilə təminatı proqramının ildən-ilə dəfələrlə genişləndirildiyini bildirib.

O, forumun əməkdaşlıq əlaqələrinin inkişafına da töhfə verəcəyini deyib, tədbirin işinə uğurlar arzulayıb.

Daha sonra əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Mətin Kərimlinin moderatorluğu ilə Azərbaycanın sosial müdafiə sisteminə, bu sahədə aparılan islahatlara dair panel iclas keçirilib. İclasda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun direktoru Himalay Məmişov, nazirliyin tabeliyində yaradılan Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyinin İdarə Heyətinin sədri Fərid Məmmədov, nazirlik yanında Dövlət Məşğulluq Xidmətinin rəisi Fuad Musayev tərəfindən təqdimatlar edilib.

Sonra mətbuat konfransı keçirilib və kütləvi informasiya vasitələri nümayəndələrini maraqlandıran suallar cavablandırılıb.

Forum "Avropada sosial təminat sahəsində əsas çağırışlar" mövzusunda BSTA-nın baş katibi Marselo Abi-Ramia Kaetanonun çıxışı və onun moderatorluğu ilə müvafiq mövzuda panel iclasının keçirilməsi ilə davam edib.

Forumun növbəti iki gün üçün gündəliyinə "Sosial təminatın idarə olunmasında mükəmməllik və yenilik" və "Avropanın sosial təminat sahəsində gələcəyinin qurulması" mövzularında plenar iclasların və paralel sessiyaların keçirilməsi daxildir.

Qeyd edək ki, BSTA Beynəlxalq Əmək Təşkilatının himayəsi altında 1927-ci ildə yaradılıb və əsas məqsədi sosial təminat sahəsində qabaqcıl standartları inkişaf etdirmək və təşviq etmək, bu sahədə beynəlxalq əməkdaşlığı həyata keçirməkdir. Mənzil-qərargahı Cenevrə şəhərində yerləşən təşkilat dünyanın Azərbaycan da daxil olmaqla 158 dövlətinin sosial təminat sahəsi üzrə fəaliyyət göstərən 330 qurumunu ətrafında birləşdirir.

BSTA-nın hər üç ildən bir keçirilən Avropa Regional Sosial Təminat Forumu Avropa ölkələrinin sosial təminat sahəsində aktual problemlərinin müzakirə edilməsinə və onların innovativ həllərlə aradan qaldırılmasına, fəal əməkdaşlıq və təcrübə mübadilələrinə şərait yaradan unikal platformadır.

# Yeni inkişaf istiqamətləri müəyyənləşir

*Əvvəli 1-ci səh.*

Ölkəmiz "Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizi"nin reallaşdırılmasında mühüm rol oynayır. Bu isə o deməkdir ki, Azərbaycan Avropa İttifaqı ilə nəqliyyat sahəsində də uğurla əməkdaşlıq edir. Bu da onu deməyə əsas verir ki, Azərbaycanla Avropa İttifaqı arasında imzalanacaq yeni sazişdən sonra siyasi əlaqələrlə yanaşı, iqtisadi münasibətlərin də yeni inkişaf istiqamətləri müəyyənləşəcək.

Azərbaycanın qurumla münasibətini, əlaqələrini dəyərləndirən Donald Tusk isə dedi ki, respublikamız Avropa İttifaqı üçün etibarlı və məsuliyyətli tərəfdaşdır və Azərbaycanın regiondakı rolu Avropa İttifaqı tərəfindən yüksək qiymətləndirilir. Çünki mövcud münasibətlər hər şeydən əvvəl bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlığa əsaslanır. Göründüyü kimi, Azərbaycanla qarşılıqlı-faydalı əməkdaşlığa əsaslanan tərəfdaşlıq münasibətlərinin davam və inkişaf etdirilməsi Avropa İttifaqı üçün xüsusi əhəmiyyət daşıyır. Çünki Cənubi Qafqaz regionunun güc mərkəzi kimi çıxış edən, mühüm geostrateji üstünlüklərə sahib olan Azərbaycanla əməkdaşlıq siyasi və iqtisadi perspektivlər nöqteyi-nəzərindən əhəmiyyətli dividendlər vəd edir.

Əlavə edək ki, Brüsseldə keçirilən Şərq Tərəfdaşlığı ölkələrinin xarici işlər nazirlərinin görüşündə də bu məsələlər müzakirə mövzusu olub. Xarici işlər naziri Elmar Məmmədyarov toplantıda Azərbaycan-Avropa İttifaqı münasibətləri və hazırkı durumu dəyərləndirərkən Azərbaycanın təşkilatla yeni ikitərəfli müqavilə ilə bağlı keyfiyyətyönümlü danışıqlar vasitəsilə qarşılıqlı münasibətlərdə uğur əldə etməkdə maraqlı olduğunu deyərək "Tərəfdaşlıq prioritetləri" sənədinin imzalanması ilə yanaşı, tərəflərin təhlükəsizlik və nəqliyyat sahəsi ilə bağlı dialoqlara başladığını bildirib.

Nazir Azərbaycanın mövqeyini bəyan edərək diqqəti ona çəkib ki, Avropa İttifaqı və onun üzvləri daxil olmaqla, Şərq Tərəfdaşlığında iştirak edən bütün tərəflər ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərini tam şəkildə dəstəkləməli və onlara əməl etməlidir. Bu mövqeyə bütün səviyyələrdə və bütün formatlarda qəbul olunan sənədlərdə riayət olunmalı və məhz belə yanaşma əsas meyar kimi götürülməlidir.

Bir sözlə, Avropa İttifaqı ilə mühüm sazişin imzalanması ərəfəsində Prezident İlham Əliyevin Brüssel səfəri Azərbaycanın beynəlxalq münasibətlər sistemində yerini və rolunu siyasi-hüquqi baxımdan daha da möhkəmləndirmiş oldu. Bir daha bəlli oldu ki, Avropa İttifaqı da yeni sazişin imzalanmasında maraqlıdır və bu sənədin imzalanması ilə ikitərəfli münasibətləri bir çox sahələrdə yeni inkişaf mərhələsinə qədəm qoyacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Problemli kreditlərin həlli ilə bağlı kompensasiya ödənişlərinin 84 faizi icra edilib

Problemli kreditlərin həlli ilə bağlı kompensasiya ödənişlərinin 84 faizi icra olunub. Bu barədə AZƏRTAC-a Maliyyə Bazarlarına Nəzarət Palatasından bildirilib.

Qeyd edilib ki, "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 28 fevral tarixli fərmanının icrası çərçivəsində ümumilikdə 602 min vətəndaşa kompensasiyanın ödənilməsi nəzərdə tutulub. Mayın 13-dək 506 min vətəndaşımıza ödənişlər təmin edilib ki, bu da planın 84 faizinin icra olunduğunu göstərir. Kompensasiya ödənişləri 243 min nəfərin ödəniş müddəti keçmiş kreditlərinin azaldılmasına yönəlib, 263 min nəfərə isə nağd və ya plastik kart formasında təqdim olunub.

Eyni zamanda, Apelyasiya Komissiyasına edilmiş müraciətlərə araşdırmaların nəticələrinə müvafiq olaraq cavabların verilməsi prosesinə başlanılıb. Bundan sonra vətəndaşlar Apelyasiya Komissiyasına müraciət üçün yaradılmış xüsusi portalda özləri üçün yaratdığı şəxsi kabinetlərindən izləyə bilərlər. Hər bir vətəndaşın müraciəti 30 iş günü müddətində cavablandırılır.

# “Pekin Ekspo 2019” Botanika Sərgisində Azərbaycan pavilyonunun rəsmi açılışı olub









Mayın 14-də Çin Xalq Respublikasının paytaxtında “Pekin Ekspo 2019” Botanika Sərgisi çərçivəsində Azərbaycan pavilyonunun rəsmi açılışı olub.

AZƏRTAC xəbər verir ki, açılışda Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib.

“Təbiəti qoruyaq, daha yaxşı yaşayaq” mövzusunda keçirilən botanika sərgisində Azərbaycan milli pavilyonu Heydər Əliyev Mərkəzinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin dəstəyi ilə hazırlanıb. “Azərbaycan: təbiət və incəsənətin harmoniyası” adlanan milli pavilyonun ümumi konsepsiyası ölkəmizin öz tarix və ənənələrinə sadiq qalaraq daim inkişafda olduğunu nümayiş etdirir. Pavilyonun spiralvarı forması Azərbaycanın davamlı, sabit inkişafını və dinamikliyini, eksteryerdə qoyulan nar ağacı isə ölkənin məhsuldar gələcəyini xarakterizə edir.



Pavilyonun interyer dizaynı ölkəmizin adət-ənənələrini nümayiş etdirir. Azərbaycan xalçalarının timsalında incəsənət və təbiətin yaxın əlaqəsi diqqətə çatdırılır, ətraf mühitin qorunmasının vacibliyi vurğulanır. Nümayiş olunan xalçalar Azərbaycanın xalçaçılıq məktəbləri üzrə dörd hissəyə bölünüb: Qarabağ, Təbriz, Gəncə-Qazax, Quba-Şirvan. Hər bir bölgəyə xas xalça motivləri xüsusi proyeksiya vasitəsilə döşəmə üzərində əks olunur.

Bundan başqa, xarıbülbül gülünü rəqəmsal formatda əks etdirən eksponat da nümayiş etdirilir.

Sərgi ziyarətçiləri Azərbaycan pavilyonunda milli musiqi alətlərimizlə tanış ola, videomateriallar vasitəsilə Azərbaycan musiqisini dinləmək və milli rəqslərimizə baxmaq imkanı əldə edə bilərlər. Burada, həmçinin Azərbaycan milli geyimləri də təqdim olunur.

Qeyd edək ki, pavilyonda xalçalarda istifadə olunan rənglər əsasında landşaft dizaynı hazırlanıb və buna uyğun bitki çeşidləri əkilib. Burada həmçinin Azərbaycan təbiətinə xas olan ağac və çiçəklər təqdim olunur.

Açılış mərasimində Azərbaycan incəsənət ustalarının ifasında konsert proqramı təqdim olunub. Sərgi ziyarətçiləri Azərbaycan musiqisini dinləyib, rəqslərinə tamaşa ediblər.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva “Asiya sivilizasiyalar dialoqu” konfransı çərçivəsində iştirakçı ölkələrin mədəni irsinin nümayiş olunduğu sərgidəki Azərbaycan stendi ilə də tanış olub.

# Li SYAOLİN: “Heydər Əliyev Fondu ilə sıx əməkdaşlıq xalqlarımız arasında dostluq münasibətlərinin inkişafına böyük təkan verir”



Mayın 14-də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Pekində Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri xanım Li Syaolin ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, Li Syaolin ötən il Azərbaycana səfərini, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ilə görüşlərini məmnunluqla xatırlayıb.

Xanım Li Syaolin rəhbərlik etdiyi təşkilatın Azərbaycan ilə əlaqələrindən danışaraq, bu işdə Heydər Əliyev Fondu ilə sıx əməkdaşlığın xalqlarımız arasında dostluq münasibətlərinin inkişafına böyük təkan verdiyini deyib.

Leyla Əliyeva Heydər Əliyev Fondu ilə Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyası arasında səmərəli əməkdaşlığı xüsusi vurğulayaraq, bu çərçivədə təşkil olunan tədbirlərdən danışıb. Gələcəkdə bu cür layihələrin qarşılıqlı olaraq davam etdiriləcəyinə əminlik ifadə olunub.

# İnnovasiya və sahibkarlıq XXI əsrin açarıdır



Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunan “İnnovasiya və sahibkarlıq XXI əsrin açarıdır” mövzusunda konfrans keçirilib.

“Boulevard Hotel Baku”da təşkil olunan elmi konfransda təhsil nazirinin müavini Firudin Qurbanov, gənclər və idman nazirinin müavini İntiqam Babayev, tələbə təşkilatlarının rəhbərləri, ölkə ali təhsil müəssisələrinin TEC sədrləri iştirak ediblər.

UNEC-in elm və innovasiyalar üzrə prorektoru, professor Sakit Yaqubov ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi uğurlardan söz açıb. Heydər Əliyevin gənclərin yüksəkixtisaslı və peşəkar kadrlar kimi hazırlanmasına ciddi önəm verdiyini diqqətə çatdıran S.Yaqubov bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib. Ölkə rəhbərinin elm və təhsil sahəsindəki müvafiq fərman və sərəncamlarından irəli gələn dövlət proqramlarının icrasına uyğun olaraq, son illərdə UNEC-də iqtisad elminin və təhsilinin inkişafı istiqamətində kompleks tədbirlərin həyata keçirildiyini vurğulayan S.Yaqubov UNEC-də müəllim və tələbələrin elmi fəaliyyətinin daha da artırılması istiqamətində həyata keçirilən tədbirlərə toxunub. UNEC-in pedaqoji heyətinin nüfuzlu elmi bazalara daxil olan jurnallarda məqalələrinin sayının nəzərəçarpacaq dərəcədə artdığını qeyd edib.

Gənclər və idman nazirinin müavini İntiqam Babayev ulu öndərin zəngin həyat və fəaliyyətinin hər zaman gənclər arasında təbliğ və tədqiq edilməsinin zəruriliyini vurğulayaraq, elmi konfransın keçirilməsinin bu baxımdan böyük əhəmiyyət kəsb etdiyini bildirib. İ.Babayev Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan yeni hədəflərə və çağırışlara hesablanan dövlət siyasətinin tərkibində insan kapitalının önə çəkildiyini, gənclərin bilikli və savadlı olması məqsədilə uğurlu addımların atıldığını qeyd edib.

Təhsil nazirinin müavini Firudin Qurbanov Azərbaycan gəncliyinin ölkədə gedən bütün proseslərdə fəal iştirak etdiyini bildirib. Hər bir dövlətin gücünün onun intellektual potensialında olduğunu, bunun isə elm və təhsilin hesabına formalaşdığını diqqətə çatdıran F.Qurbanov əmək bazarının tələbinə uyğun mütəxəssis kimi yetişmək üçün fundamental biliklərə yiyələnməyin vacibliyini qeyd edib.

Konfransda UNEC Empirik Tədqiqatlar Mərkəzinin rəhbəri, “Beynəlxalq iqtisadiyyat” məktəbi üzrə TEC elmi rəhbəri Xətai Alıyev “Uğurun açarı: tədqiqat marağından elmin zirvəsinə”, TEC sədri Nərmin Heydərova “Tələbə Elmi Cəmiyyətinin bugünü” mövzularında çıxış ediblər.

Konfransda respublika gənclərinin elmi potensialının artırılması, universitetlərdə fəaliyyət göstərən TEC-lərin işinin təkmilləşdirilməsi və düzgün koordinasiyası məqsədilə UNEC TEC tərəfindən Azərbaycan Tələbə Elmi Cəmiyyəti Alyansının (ATECA) yaradılması təklifi irəli sürülüb.

Konfrans bölmə iclasları ilə öz işini davam etdirib.

# Azərbaycan ilə Çin arasında əlaqələr uğurla inkişaf edir





Mayın 14-də Çin Xalq Respublikasında səfərdə olan Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Pekində bu ölkənin xarici işlər nazirinin müavini Lı Yunçen ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Lı Yunçen iki ölkə arasında münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq, Çinin Azərbaycan ilə əməkdaşlığının daha da dərinləşməsi üçün səylərini davam etdirəcəyini bildirib. O, Azərbaycanın mədəni irsi ilə seçilən ölkə olduğunu vurğulayaraq, son dövrlər Çində Azərbaycan mədəniyyəti ilə bağlı müxtəlif tədbirlərin keçirildiyini qeyd edib. Bildirib ki, bu cür tədbirlər xalqlarımız arasında dostluq münasibətlərinin dərinləşməsinə böyük töhfələr verir.

Nazir müavini Pekində keçirilən “Asiya sivilizasiyalar dialoqu” konfransında və konfrans çərçivəsində təşkil olunan tədbirlərdə Azərbaycanın fəal iştirakını məmnunluqla vurğulayıb.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlığın dərinləşməsinin xalqlarımızın hələ tarixi İpək yolu dövründən təməli qoyulan dostluq münasibətlərini daha da inkişaf etdirdiyini deyib.

Ötən ay Azərbaycan Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpinin dəvəti ilə Pekində 2-ci “Bir kəmər, bir yol” Beynəlxalq Əməkdaşlıq Forumunda iştirakını yada salan Leyla Əliyeva diqqətə çatdırıb ki, ölkəmiz Çinin bu təşəbbüsünü ilk dəstəkləyən ölkələrdən biri olmaqla yanaşı, bu layihə çərçivəsində iqtisadi, humanitar, mədəni sahələrdə əməkdaşlığı dərinləşdirməyə çalışır.

Heydər Əliyev Fondunun vitse-prezidenti Azərbaycanda Çinə, onun mədəniyyətinə, dilinə, ənənəvi təbabətinə böyük maraq olduğunu deyib. Leyla Əliyeva Heydər Əliyev Fondunun həmin istiqamətlərdə Çin ilə əməkdaşlığı dərinləşdirməkdə maraqlı olduğunu bildirib.

# Prezident Administrasiyasının məsul işçiləri bölgələrdə vətəndaşların müraciətlərini dinləyiblər

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçiləri respublikanın bir sıra şəhər və rayonlarında vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, mayın 14-də Qax, Salyan, Şabran, Tovuz və Xocalı rayonlarından olan sakinlərlə görüşüblər. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin tapşırığına əsasən keçirilən görüşlərdə sakinlərin qaldırdıqları məsələlər diqqətlə dinlənilib. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerində həll olunub, digər müraciətlər isə operativ araşdırılması və qanunvericiliyə uyğun həlli üçün nəzarətə götürülüb.

Görüşlərdə qeyd olunub ki, Prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində respublikamızda müasir infrastruktur, istehsal və emal müəssisələri yaradılır, yeni iş yerləri açılır. Bütün bunlar, ilk növbədə, əhalinin sosial rifah halının daha da yaxşılaşdırılmasına yönəlib. Dövlət başçısının da dediyi kimi, yürüdülən siyasətin təməlində Azərbaycan vətəndaşı, onun rifah halının yaxşılaşdırılması dayanır. Son vaxtlarda imzalanan fərman və sərəncamlar, sosial-iqtisadi sahədə aparılan islahatlar Prezident İlham Əliyevin əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirdiyi tədbirlərin davamıdır.

Həmçinin görüşlərdə məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulması, insanlara layiqli xidmət göstərilməsi, etik davranış qaydalarına əməl olunmasının vacibliyi bir daha vurğulanıb.

Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# Vətəndaşların qəbulu keçirilib

Mayın 14-də Azərbaycan Respublikasının fövqəladə hallar naziri Kəmaləddin Heydərov Göyçay şəhərində Göyçay rayonunun sakinlərinin, həmçinin bu rayonda məskunlaşmış məcburi köçkünlərin qəbulunu keçirib.

AZƏRTAC xəbər verir ki, fövqəladə hallar naziri tərəfindən qəbul edilən 15 vətəndaşın müraciətlərinin bir çoxu yerindəcə öz həllini tapıb, bir sıra məsələlərlə bağlı qanunvericiliyə uyğun dərhal zəruri tədbirlərin görülməsi barədə aidiyyəti strukturların rəhbərlərinə tapşırıqlar verilib. Həmçinin kadr və digər məsələlərlə bağlı 72 vətəndaş nazir müavini, nazirliyin müvafiq baş idarə və qurum rəhbərliyi tərəfindən qəbul olunub.

Bundan əlavə, fövqəladə hallar nazirinin birinci müavini Rəfail Mirzəyev Kürdəmir şəhərində Kürdəmir rayonunun 49, fövqəladə hallar nazirinin müavini Etibar Mirzəyev isə Ucar şəhərində Ucar rayonunun 53 sakinini və həmin rayonlarda məskunlaşmış məcburi köçkünləri qəbul edib.

# Azərbaycanla Gürcüstan arasında dövlət sərhədinin delimitasiyası məsələsi müzakirə olunub

Mayın 14-də Bakıda Azərbaycan Respublikasının Xarici işlər nazirinin müavini Xələf Xələfov ilə Gürcüstan Xarici işlər nazirinin müavini Laşa Darsaliya arasında görüş keçirilib.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, müvafiq dövlət qurumlarının nümayəndələrinin də iştirak etdikləri görüşdə iki ölkə arasında dövlət sərhədinin delimitasiyası məsələləri üzrə fikir mübadiləsi aparılıb.

Görüşün nəticəsində iki dövlət arasında razılaşdırılmamış sahələr üzrə müzakirələrin Dövlət komissiyalarının gələn həftə keçiriləcək növbəti iclasında davam etdirilməsi qərara alınıb. Məlum olduğu kimi, Azərbaycan və Gürcüstan arasında sərhəd hələ SSRİ dövründə müəyyən olunub. Hər iki ölkənin müstəqilliyi əldə olunduqdan sonra Azərbaycan ilə Gürcüstan arasında dövlət sərhədinin delimitasiyası və demarkasiyası üzrə müvafiq Dövlət komissiyaları yaradılıb və indiyədək komissiyaların 11 iclası keçirilib. Bu proses çərçivəsində 480 kilometrlik Azərbaycan-Gürcüstan dövlət sərhədinin əksər hissəsinin delimitasiyasına dair komissiyalar səviyyəsində razılıq əldə edilib. Hazırda 166 kilometrlik hissələr üzrə ekspertlər səviyyəsində iş davam etdirilir.

Cari il Pasxa bayramı ərəfəsində Gürcüstan sərhədçiləri Azərbaycanın “Keşikçidağ” Dövlət Tarix-Mədəniyyət Qoruğu ərazisində yerləşən obyektlərinə asanlaşdırılmış qaydada keçidin təmin edilməsi barədə müraciət ediblər. Gürcüstanla mövcud sıx əməkdaşlıq ruhuna uyğun olaraq, bu müraciət Azərbaycan tərəfindən müsbət cavablandırılıb. Gürcüstan tərəfindən eyni rejimin növbəti həftəyə şamil edilməsi barədə yeni müraciət daxil oldu. Azərbaycan tərəfi bu müraciətə də anlayışla yanaşaraq, iki ölkə arasında sərhədin delimitasiyası məsələsinin ən qısa müddət ərzində yekunlaşdırılmasının vacib olduğunu bəyan edib. Gözlənti ondan ibarətdir ki, Azərbaycan ilə Gürcüstan arasında dövlət sərhədinin delimitasiyası qısa müddət ərzində yekunlaşdırılacaq.

# Özünüməşğulluq - işsizlikdən kiçik ailə biznesinə keçmək imkanı

## İlham ƏLİYEV: "Azərbaycanda özünüməşğulluq proqramının həm məşğulluq, həm iqtisadi inkişaf, həm də istehsal baxımından çox böyük gələcəyi var"





*Əvvəli 1-ci səh.*

Bunun bir səbəbi utopik kommunist təbliğatı ilə formalaşıb daşlaşmış şüurla bağlıdırsa, digər səbəbi yeni iqtisadi münasibətlərin tələblərindən baş çıxarmamaqla və ya el arasında deyildiyi kimi, bacarıqsızlıqla əlaqədardır.

Bununla belə, biz liberal bazar münasibətlərinin şərtlərinin hamının öhdəsindən gələ biləcək qədər asan olduğunu da iddia etmirik. Belə olsaydı, müstəqilliyinin yaşı heç 30-a çatmayan Azərbaycanı demirik, hətta bazar münasibətlərinin oturuşduğu inkişaf etmiş ölkələrdə cəmiyyət maddi cəhətdən məlum səviyyədə təbəqələşməzdi. Kiminsə milyonları və milyardları fonunda bir başqasının iş, yaxud başının üstünə dam axtarması liberal bazar iqtisadiyyatı üçün adi və qəbuledilən haldır.

Amma ilk baxışdan təzadlı görünən bu yolu seçmiş ölkələrdə dövlətin, hökumətin boynuna ikincilərin sosial problemlərini həll etmək kimi bir missiya da düşür. Və çox yaxşı haldır ki, Azərbaycanda dövlət bu missiyanın öhdəsindən layiqincə gəlir. "Bizim bütün iqtisadi fəaliyyətimizin məqsədi əhalinin sosial müdafiəsini gücləndirməkdir" deyən Prezident İlham Əliyev bunu həyata keçirdiyi islahatlar və həmin çərçivədə imzaladığı fərman və sərəncamlarla sübut edir. Təkcə cari ilin əvvəlindən reallaşmağa başlamış sosial paketə daxil olan tədbirlərin ölkə əhalisinin təxminən üçdəbirini əhatə etməsi İlham Əliyevin bu istiqamətdəki hədəflərinin aydın göstəricisidir.

Dövlət başçısının son illər sosial sahədə xüsusi diqqət və əhəmiyyət verdiyi məsələlərdən biri də özünüməşğulluqdur. Təsadüfi deyil ki, özünüməşğulluq əmək ehtiyatlarından dolğun istifadənin təmin olunması, əhalinin məşğulluq imkanlarının artırılması baxımından ölkənin dayanıqlı və uzunmüddətli inkişafını təmin edən dövlət siyasətinin strateji məqsədləri sırasındadır. Dövlət başçısının təşəbbüsü və tapşırığı əsasında icra edilən bu sosial proqram çərçivəsində aztəminatlı ailələrin fərdi təsərrüfatlara sahib olmaları onların dövlət yardımından asılılığının aradan qalxmasına, öz zəhmətləri hesabına ailə gəlirlərini artırmalarına və sahibkarlığa çıxış imkanı qazanmalarına şərait yaradır. Məhz bu amilləri əsas tutan Prezident Nazirlər Kabinetinin 2019-cu ilin ilk rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında özünüməşğulluq proqramının əhəmiyyətini bir daha qeyd etmişdir. "İş yerlərinin yaradılması üçün, əlbəttə ki, vacib amillərdən, vasitələrdən biri özünüməşğulluq proqramıdır. Biz buna da başlamışıq. Bu proqram çox böyük rəğbət qazanıb. Biz hər il özünüməşğulluq proqramı çərçivəsində təqribən 7 minə yaxın insanı işə cəlb etmək fikrindəyik. Ancaq yerlərdən gələn sifarişlər qat-qat çoxdur. Bunu biz nəzərə almalıyıq və öz planımıza düzəlişlər etməliyik" deyən dövlət başçısı Azərbaycanda özünüməşğulluq proqramının həm məşğulluq, həm iqtisadi inkişaf, həm də istehsal baxımından çox böyük gələcəyinin olduğunu vurğulamışdır.



Bu perspektivi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən aldığımız məlumatlar da təsdiqləyir. Məlumatda bildirilir ki, özünüməşğulluq proqramı üzrə verilmiş aktivlər hesabına yaradılan təsərrüfatların 83 faizi kənd təsərrüfatı (maldarlıq, quşçuluq, əkinçilik, arıçılıq, bağçılıq, istixana yaratma və s.), qalan hissəsi isə xidmət və istehsal sahələrini əhatə edir. Həmin təsərrüfatlar ölkədə qeyri-neft sektorunun inkişafına və bu sektorda məhsul istehsalının artımına, üstəlik gələcəkdə vergitutmaların əhatə dairəsinin genişlənməsinə əlavə dəstək verir. Ayrı-ayrı iqtisadi fəaliyyət növləri ilə yanaşı, xalçaçılıq, misgərlik və s. üzrə də ailə təsərrüfatları yaradılır ki, bu da eyni zamanda qədim xalq sənəti növlərinin yaşadılmasına hesablanıb.

Ümumiyyətlə, adıçəkilən nazirlik tərəfindən icra olunan özünüməşğulluq proqramına 2018-ci ildə cəlb edilənlərin sayı 2017-ci illə müqayisədə 6,5 dəfə artaraq 7896 nəfərə çatmışdır. Bu vətəndaşlar ilkin mərhələdə Beynəlxalq Əmək Təşkilatının təlimçiləri tərəfindən keçirilən kurslara cəlb edilmişlər. Kurslarda onlara kiçik ailə biznesinin təşkili, idarə olunması və inkişaf etdirilməsi üçün zəruri bilik və bacarıqlar öyrədilmişdir. Təlim kursunu uğurla bitirən və qiymətləndirmələr zamanı biznes planları keçərli hesab edilən 7267 nəfər proqramın iştirakçısı olmuşdur. Onu da bildirək ki, iştirakçılara biznes-planlarına uyğun aktivlər (mal-materiallar) verilərkən onların keyfiyyətinə nazirlik tərəfindən ciddi nəzarət olunur və bu barədə proqram iştirakçılarının rəyi nəzərə alınmaqla akt tərtib edilir.

Proqrama cəlb olunmaq üçün müraciət edənlər arasında həssas qruplara aid vətəndaşlara üstünlük verilməsi də xüsusi vurğulanmalıdır. Belə bir yanaşmanın nəticəsidir ki, ötənilki proqram iştirakçılarından 1255 nəfəri məcburi köçkünlər, 816 nəfəri ünvanlı dövlət sosial yardımı alan ailələrin üzvləri, 913 əlil şəxslər, 1026 nəfəri gənclər, 158 nəfəri şəhid ailələrinin üzvləri olmuşlar. Bu şəxslərin hamısı proqram çərçivəsində verilən aktivlər hesabına öz kiçik ailə təsərrüfatlarını yaratmışlar. Baxış zamanı proqram iştirakçılarının təsərrüfatlarını nəinki normal idarə etdikləri, hətta fəaliyyətlərini genişləndirmək üçün səylə çalışdıqları müşahidə olunmuşdur.

Yeri gəlmişkən, özünüməşğulluq proqramının genişlənməsinə, bu proqram vasitəsilə kənd təsərrüfatının mühüm sahəsi olan bağçılığın inkişafına Heydər Əliyev Fondu fəal dəstək verir. Bu dəstəyin sayəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi arasında imzalanmış memorandum çərçivəsində həyata keçirilən "Sosial bağlar" layihəsi üzrə 41 rayonda həssas qrupları əhatə edən 125 ailə üçün intensiv meyvə bağları, tərəvəz və bostançılıq təsərrüfatları yaradılmışdır. Cari ildə də davam edən layihənin iştirakçıları deyirlər ki, qısa müddətdən sonra artıq bağlardan yaxşı gəlir götürə biləcəklər.

Proqramın icrası çərçivəsində aparılan işlər eyni zamanda ölkədə ailə təsərrüfatlarının sayının artmasına şərait yaradır ki, bu da əmək resurslarının səmərəli məşğulluq imkanlarını artırmaqla bərabər, iqtisadiyyatda mühüm faktorlardan sayılan ailə biznesinin genişlənməsinə, kiçik və orta sahibkarlığın inkişafına əlavə imkanlar açır. Bu fikirlərin arxasında real faktların dayandığını sübut etmək üçün proqram sayəsində işsizdən kiçik ailə biznesi sahibinə çevrilmiş bir neçə konkret misal çəkək.

Gəncə şəhərindən olan Şərqiyə Abbasova və Rauf Abbasov özünüməşğulluq proqramı çərçivəsində çörək-şirniyyat istehsalı üzrə kiçik müəssisə yaradıb və bununla onlar ələbaxımlıqdan qurtulublar. Neftçala sakini Sona Hüseynova isə deyir ki, rayon Məşğulluq Mərkəzində işsiz kimi qeydiyyatda olub: "İşləmək istəyirdim. Arzumsa sahibkar olmaq, istehsalyönümlü kiçik müəssisə yaratmaq idi. Amma buna maddi imkanım yox idi. Odur ki, özünüməşğulluq proqramı barədə eşidəndə çox sevindim. İştirak üçün müraciət etdim və ailəmizin müəyyən potensialı nəzərə alınaraq proqrama cəlb olundum. Əvvəlcə təlim kursunda kiçik biznesin təşkili və idarə edilməsini öyrəndim. Kursu bitirəndən sonra biznes-planım bəyənildi və istədiyim aktivlər, materiallar verildi. Bu gün artıq çörək və şirniyyat məmulatları istehsal edən kiçik ailə müəssisəmiz var. Artıq özünüməşğulluq proqramı hesabına işsizdən kiçik sahibkara çevrilmişəm deyə bilərəm".

Qazaxlı Rəşid Namazov və Ümid İsmayılov isə işsiz vətəndaşların proqrama cəlb olunmasında həssas qruplara üstünlük verilməsindən razılıq edirlər. Çünki əlil olmalarına baxmayaraq, onlar proqrama çox rahat qoşulublar və verilmiş heyvanlar hesabına öz heyvandarlıq təsərrüfatlarını yaradıblar. İmişli rayonundan Nadir Əliyev, Zaur Mustafayev, Seymur Cəfərov da həssas qruplardan olanlara proqramda geniş iştirak imkanının yaradılmasını humanist addım kimi dəyərləndirirlər: "Bizdə də proqrama qoşulanların əksər hissəsi əlillər, müharibə veteranları, evində sağlamlıq imkanları məhdud uşağı olanlar, məcburi köçkünlər, sosial yardım alanlar, aztəminatlılardır. İşsiz olan insanların öz səmərəli məşğulluqlarını qurmaları və ailə təsərrüfatlarını yaratmaları üçün özünüməşğulluq proqramı əsasında təmənnasız dəstək verilməsi, mal və materialların hədiyyə edilməsi kiçik güzəşt deyil. Bizi də bu proqram çərçivəsində heyvandarlıq üzrə ailə təsərrüfatımızı yaratmaq üçün mal-qara ilə təmin etdilər. Yaxşı bilirik ki, artıq bundan sonrakı işlərimiz öz səylərimizdən asılıdır".

Çox yaxşı haldır ki, bu proqram Cocuq Mərcanlıda da icra olunur. Kənddə yaşayan 25 ailəyə heyvandarlıq üzrə kiçik ailə təsərrüfatlarını yaratmaları üçün mal-qara verilib. İndi onlar təsərrüfatlarını genişləndirməklə məşğuldurlar. Nazirliyin məlumatına görə, cari ildə də daha bir qrup Cocuq Mərcanlı sakininin özünüməşğulluq proqramına cəlb olunması nəzərdə tutulur. Söz ki cəbhə bölgəsindən düşdü, Tərtəri qeyd etməmək düzgün olmazdı. Tərtərli proqram iştirakçıları Məhiyyədin Rəhimov, Gülyanaq Əliyeva, Elşən Kərimov, Ramil Mahmudov, Emin Həsənov deyirlər ki, indi onlar öz kiçik ailə təsərrüfatlarına malikdirlər və hazırda işlərini genişləndirmək, gəlirlərini artırmaq üçün gecə-gündüz çalışırlar.

Cari ilin birinci rübü ərzində görülən işlərə gəldikdə isə, artıq 1000-dən çox işsiz özünüməşğulluq proqramına cəlb olunub. Bu dəfə də onların əksəriyyəti əlillər, şəhid ailəsi üzvləri, məcburi köçkünlər, gənclərdir. Nazirliyin cari il ərzində proqrama cəlb olunanların sayının 10 minə çatdırılacağı qeyd edilən məlumatında o da bildirilir ki, özünüməşğulluq proqramının genişləndirilməsi sahəsində Dünya Bankı ilə əməkdaşlıq imkanlarından geniş istifadə edilir və bu hesaba 2020-ci ildə proqram çərçivəsində 15 min mikromüəssisənin yaradılması planlaşdırılır.

Proqramın icra mexanizminin təkmilləşdirilməsi, sosial yardım alanların, daha çox sosial müdafiəyə ehtiyac duyanların proqramda iştirak səviyyəsinin artırılması da diqqətdə saxlanılır. Həmin çərçivədə nəzərdə tutulan işlər sırasında isə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Məşğulluq" altsistemində özünüməşğulluq proqramı iştirakçılarının hər birinin ayrıca kabinetinin yaradılmasının planlaşdırıldığını göstərmək olar. Elektron kabinetdə vətəndaşın özünüməşğulluq proqramına müraciəti və proqrama qəbulu, bu çərçivədə təlim kursu keçməsi, müdafiə etdiyi biznes-plan, eləcə də proqram iştirakçısının biznes-planına uyğun verilən aktivlərlə bağlı bütün məlumatlar yerləşdiriləcək.

***Raqif MƏMMƏDLİ,***
***"Azərbaycan"***

# "Təzadlar" qəzetinin adı nə üçün "qara siyahı"ya daxil edilib?

Azərbaycan Mətbuat Şurasının (MŞ) "Reket jurnalistika"ya qarşı mübarizə Komissiyasının və MŞ-nin Apelyasiya komissiyasının 1 mart 2019-cu il tarixdə keçirilmiş birgə iclasının rəyinə əsasən "Təzadlar" qəzetinin adı şuranın "qara siyahı"sına daxil edilib. Bunun səbəbi "Təzadlar" qəzetinin baş redaktoru Asif Mərziliyə izah olunub. Eyni zamanda, ona "qara siyahı"dan çıxmağın prosedurları barədə də məlumat verilib.

Təəssüflər olsun ki, A.Mərzili "Təzadlar" qəzetinin "qara siyahı"ya daxil edilməsini şərtləndirən nöqsanları aradan qaldırmaq, fəaliyyətində dönüş etmək əvəzinə fərqli yol seçib. O, Azərbaycan Mətbuat Şurasına və MŞ-nin İdarə Heyətinin ayrı-ayrı üzvlərinə qarşı şər, böhtan atmaqla məşğuldur. Maraqlıdır ki, A.Mərzili MŞ İdarə Heyətinin bəzi üzvlərini sərt tənqidə məruz qoyduğu halda, qurumun digər üzvlərinə, belə demək mümkünsə, "separat danışıqlar" təklif edir, bir növ, ikitirəlik yaratmağa köklənir.

Peşəkarlar, o cümlədən diqqətli oxucular MŞ-nin fəaliyyəti, onun ictimai qınaq forması kimi seçdiyi "qara siyahı" barədə məlumatlıdırlar. Hər kəs bilir ki, şura medianın özünütənzimləmə qurumu qismində jurnalistlərin "Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydaları"na (AJPDQ) nə dərəcədə riayət etmələrinə nəzarəti həyata keçirir, peşə prinsiplərini pozan KİV-ə yol verdikləri yanlışlıqları xatırladır, nöqsanların aradan qaldırılması üçün tövsiyələr ünvanlayır. Qurumun AJPDQ-nın prinsiplərini düşünülmüş şəkildə, hansısa maraqlar naminə pozmuş KİV-ə qarşı ictimai qınaq tədbiri - "xəbərdarlıq", "ciddi xəbərdarlıq" və nəhayət, "qara siyahı"ya daxil etməkdir. "Təzadlar" ilə bağlı hər 3 prosedur tətbiq olunub: müxtəlif vaxtlarda yayımladığı və AJPDQ-nın prinsiplərinin kəskin şəkildə pozulduğu məqalələrinə görə nəşrə xəbərdarlıqlar edilib. Əlbəttə, nəticə çıxarmadığı üçün onun adı "qara siyahı"dadır.

Tövsiyələri, xəbərdarlıqları saya almayan A.Mərzili yalnız adının "qara siyahı"ya düşməsindən sonra prosesi ciddiyə alıb. Lakin yenidən yanlış addımlar atmaqda davam edir. Hazırda "Təzadlar" qəzetinin səhifələrində AJPDQ-nın prinsiplərini ciddi şəkildə pozan, paralel olaraq, MŞ-nin rəylərini şübhə altına alan məqalələr yayımlanır, oxucuları çaşdırmağa cəhd göstərilir. Ancaq Asif Mərzili istəsəydi, durum bu qədər kəskin həddə çatmazdı.

MŞ monitorinq qrupu "Təzadlar" qəzeti və A.Mərzili barədə vətəndaşlardan, ayrı-ayrı idarələrdən daxil olmuş şikayətlər üzrə təqribən 30-a yaxın məqaləni təhlil edib. Bəlli olub ki, bu yazılarda ayrı-ayrılıqda ən yaxşı halda 30-a qədər səhv var və bu səhvlərin hər biri narazılıq üçün əsas verir. Yanlış, yalan yazmaq, marağı tələb edəndə məsələləri şişirdib əndazədən çıxarmaq, şər və böhtan atmaq, istənilən vasitə ilə şəxsi maraqlarını təmin etməyə çalışmaq Asif Mərzilinin ənənəvi iş üslubudur. Belə yanaşma AJPDQ-yə, ümumilikdə jurnalistika prinsiplərinə ziddir.

Asif Mərzilinin bu yanaşma tərzi "Təzadlar"ı dəfələrlə çətin duruma salıb. Bəzən belə dəsti-xətt ölkəmizin maraqlarına zidd olub. Diqqət yetirək: "Təzadlar" qəzeti 2009-cu ildə Türkiyənin Azərbaycandakı səfiri Hulusi Kılıç barədə məqalə dərc etmişdi. Məqalə Mərzilinin həsəd və qısqanclıq hissləri zəminində yazılmışdı. Reallıq bu idi ki, keçmiş səfir həmin vaxtlarda redaksiyalara baş çəkir və kiçik xatirə hədiyyələri təqdim edirdi. "Təzadlar" isə bunu səfirliyin guya mətbuatı ələ alması kimi göstərmişdi. Halbuki səfir "Təzadlar"ın redaksiyasını ziyarət etsəydi, bu bəsit motivə əsaslanmış iddia ortaya çıxmazdı. Başqa cür düşünmək üçün əsas yoxdur. Buna və digər məsələlərə görə MŞ qəzetin adını "qara siyahı"ya daxil etmişdi. Lakin beş illik fasilədən sonra Mətbuat Şurası A.Mərzilinin xahişini nəzərə alaraq "Təzadlar"ın adını "qara siyahı"dan çıxartdı. Həmin andan baş redaktor yenidən öz neqativ əməllərinə qayıtdı.

A.Mərzili və rəhbərlik etdiyi "Təzadlar" qəzeti ilə əlaqədar şikayətlər o qədər çoxalıb ki, onları araşdırmaq, təhlil etmək, səhvləri qruplaşdırmaq xeyli vaxt aparır. Təsəvvür edin ki, MŞ-nin Şikayətlər üzrə Komissiyasının son bir il müddətində keçirdiyi bütün iclasların gündəliyində "Təzadlar" qəzetindən şikayətin müzakirəsi yer alıb. Komissiyanın 20 noyabr 2018-ci il tarixli iclasında (BDU-nun dosenti Rəşid Cabbarovun şikayəti üzrə) və 14 dekabr 2018-ci il tarixli iclasında (Ağdam Rayon İcra Hakimiyyətinin Bakı şəhəri üzrə daimi nümayəndəliyinin rəhbəri Elxan Mahmudovun və "Psixologiya" jurnalının təmsilçisi V.Abduləzimovun şikayəti üzrə, "Kür-Xəzər" Xeyriyyə Cəmiyyəti İctimai Birliyinin sədri Akif Kərimovun şikayəti üzrə) "Təzadlar" qəzeti və "təzadlar.az" saytı barədə şikayətlər araşdırılıb, şikayət doğuran materiallarda AJPDQ-nin balans prinsipinin pozulduğu müəyyən edilib. Bənzər xətaların təkrarlandığını nəzərə alaraq "Təzadlar" qəzeti və "təzadlar.az" saytına MŞ tərəfindən xəbərdarlıq olunub. Tərəflər razılaşıblar ki, yazıda adı keçən və ittiham olunanların fikirlərinin açıqlanması üçün saytda şərait yaradılsın. Amma A.Mərzili özünün də iştirakı ilə keçirilmiş bu iclaslardan sonra razılaşmaları pozub, şikayətçilərə qəzetdə fikirlərini çatdırmaq imkanı verməkdən yayınıb.

Mətbuat Şurasının Şikayətlər üzrə Komissiyasının 15 yanvar 2019-cu il tarixdə keçirilmiş iclasında vətəndaş Quliyev Şakir Sabir oğlunun və Azərbaycan Dövlət İqtisad Universitetinin - UNEC-in professor/müəllimlərinin "Təzadlar.az" saytına qarşı şikayətləri araşdırılıb. Həmin müraciətlərdə iddia olunurdu ki, saytda Azərbaycan Dövlət İqtisad Universiteti - UNEC barədə qısa müddət ərzində 255-ə yaxın məqalə yayımlanıb. Məqalələr şər, böhtan xarakterlidir. Həmin 255 məqalədən yalnız 20-yə yaxını MŞ üzvlərinə təqdim edilmişdi.

Komissiya müəyyən edib ki, son vaxtlar "Təzadlar.az" saytı barədə MŞ-yə ünvanlanmış şikayətlər intensivləşib. Şikayət doğuran materiallarda AJPDQ-nin əksər prinsipləri pozulub. Komissiya üzvləri mübahisəli məqamların çoxluğunu, həm iddialarda, həm də verilən cavablarda boşluqların olduğunu, dəqiqləşdirmələrə ehtiyacın yarandığını nəzərə alaraq qərara gəliblər ki, qeyd edilən KİV-in fəaliyyətinin və şikayət doğuran materialların geniş araşdırılması üçün "Təzadlar" qəzeti və onun onlayn versiyası üzrə materiallar MŞ-nin monitorinq qrupuna yönləndirilsin. A.Mərziliyə də tövsiyə edilib ki, kampaniya xarakterli yazıları bir həftə müddətində dayandırsın, monitorinq qrupunun mövcud məqalələr üzərində araşdırma aparmasına şərait yaratsın. Baş redaktor bu şərtlə razılaşdığını bildirsə də, həmin günün ertəsi şərtləri pozub, Dövlət İqtisad Universitetinin rəhbərliyi ilə yanaşı, MŞ üzvlərini də tənqid hədəfinə çevirən yazılar yayımlamağa başlayıb. Şura üzvləri ilə "separat danışığ"ında isə etiraf edib ki, həmin məqalələrin sifarişçiləri onların yayımının bir həftəlik dayandırılması ilə razılaşmırlar və bu səbəbdən Şikayətlər üzrə Komissiyanın tövsiyələrini qəbul etməməyə məcburdur. Göründüyü kimi, "Təzadlar" qəzeti üçün "qara siyahı"dan başqa yol qalmır.

***Azərbaycan Mətbuat***
***Şurasının katibliyi***

# Azərbaycan Heydər Əliyev Fondunun təşkilatçılığı ilə 58-ci Venesiya Biennalesində təmsil olunur

Azərbaycan Heydər Əliyev Fondunun təşkilatçılığı ilə 58-ci Venesiya Biennalesi - Beynəlxalq İncəsənət Sərgisində təmsil olunur. Fonddan AZƏRTAC-a bildirilib ki, Biennaledə ölkəmiz "Virtual reallıq" ("Virtual Reality") mövzusundakı milli pavilyonla iştirak edir.

Kampo Santo Stefanodakı XIV əsrə aid Lezze Sarayında açılan ekspozisiyada rəssam və heykəltəraşlar Zeyqəm Əzizov, Orxan Məmmədov, Zərnişan Yusif, Kənan Əliyev və Ülviyyə Əliyevanın əsərləri təqdim olunur.




Pavilyondakı multimedia əsərləri, instalyasiya və heykəllərin mövzusu bunları əhatə edir: insanlar hər gün heyrətamiz xəbər axını ilə üzləşir. Dünyada hər bir insan gün ərzində təxminən 150 dəfə telefonunu yoxlayır, 2 milyarddan çox insan sosial şəbəkələrdən istifadə edir. Saxta xəbərlər sosial şəbəkələr vasitəsilə daha çox paylaşılır, aparılan müzakirələrin əksər hissəsi isə onların doğru olub-olmadığı ilə bağlı deyil.

58-ci Venesiya Biennalesi noyabrın 24-dək davam edəcək.

Venesiya Biennalesi müasir incəsənət sahəsində dünyanın ən nüfuzlu sərgilərindən hesab olunur və iki ildən bir keçirilir. Azərbaycan bu beynəlxalq layihədə 2007-ci ildən iştirak edir.

# Rusiya-Ermənistan münasibətləri daha da gərginləşib

*Əvvəli 1-ci səh.*

Həmin aksiyada bunu etməyə polis imkan verməyib. Ancaq o, Rusiyanın dövlət bayrağını ayağı altına ataraq tapdalayıb. Fikrimcə, vətəndaş öz mövqeyini başqa dövlətin bayrağını yandırmaq və ya tapdalamaqla bildirə bilər. Ancaq mən belə bir adamın Ermənistanda qubernator kimi yüksək vəzifəyə təyin edilməsini başa düşə bilmirəm. Halbuki hakimiyyət Rusiya ilə əlaqələrin gücləndirilməsi istiqamətində fəaliyyət göstərdiyini iddia edir".

David Gevorkyan 2018-ci il oktyabrın 10-dək Ermənistanın ərazi idarəetmə və inkişaf nazirinin müavini vəzifəsində işləyib. O, həmin tarixdə istefa verərək qubernator vəfizəsinə təyin edilib. Hesab edilir ki, belə bir adamın yüksək vəzifədə qalması Rusiya-Ermənistan münasibətlərini daha da pisləşdirəcək.

Digər tərəfdən, Ermənistanda Rusiyanın adamları kimi tanınan şəxslərin sıradan çıxarılması Moskvada xoş qarşılanmır. Yerevana xəbərdarlıq edilsə də, Paşinyan bunu nəzərə almır. Elə bunun nəticəsidir ki, Rusiyanın adamları kimi tanınan Ermənistanın keçmiş prezidenti Robert Koçaryan, müdafiə naziri Seyran Ohanyan, müdafiə nazirinin keçmiş müavini, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının keçmiş katibi Yuri Xaçaturov və Ermənistanın baş nazirinin keçmiş müavini Armen Gevorkyanın artıq məhkəməsi keçirilir. Halbuki Rusiya bu şəxslərə toxunmamaq üçün Yerevana dəfələrlə mesaj ünvanlayıb. Lakin bu da nəzərə alınmayıb. Həmin şəxslərlə bağlı məhkəmə prosesi isə Yerevanın Avan və Nor Nork rayonunda keçirilir.

Xatırladaq ki, 2008-ci ilin fevral ayında Ermənistanda prezident seçkiləri keçirilib. O vaxt Mərkəzi Seçki Komissiyası namizədlərdən biri olan və hakimiyyətin dəstəklədiyi Serj Sarkisyanın 52,8 faiz səs topladığını və qalib gəldiyini elan edib. Digər namizəd - Ermənistanın ilk prezidenti Levon Ter-Petrosyan seçkidə saxtakarlıq olduğunu elan edib və nəticələri tanımayıb. Seçkilərin nəticələrinin saxtalaşdırılmasına etiraz olaraq martın 1-2-də ölkədə genişmiqyaslı aksiyalar keçirilib. Hakimiyyət mitinqin dağıdılması üçün güc tətbiq edib. Ordu və polisin açdığı atəş nəticəsində 10 nəfər ölüb, xeyli insan yaralanıb. Bu hadisələri törədənlər indiyədək cəzalandırılmayıblar. Paşinyan Ermənistanın baş naziri olandan sonra 2008-ci ilin 1-2 mart hadisələrinə görə cinayət işi təzələnib.

O vaxtkı prezident Robert Koçaryan məsələ ilə bağlı 2018-ci il iyulun 27-də həbs olunub. Adları yuxarıda qeyd edilənlər konstitusiya quruluşunu devirmək və külli miqdarda rüşvət almaq, qanunsuz yolla əldə edilən vəsaitləri leqallaşdırmağa görə mühakimə olunurlar.

Rusiya isə bu şəxslərin azadlığa çıxmasını istəyir, amma onun bu istəyini Yerevan yerinə yetirməkdən imtina edir. Bu da iki ölkə arasında münasibətləri daha da pisləşdirir.

Rusiyalı politoloq Aleksey Fenenko da bildirir ki, hakimiyyətə Paşinyanın gəlişindən sonra Rusiya-Ermənistan münasibətlərində müəyyən soyuma hiss olunur: "Rusiyanın siyasi isteblişmenti Ermənistanın yeni siyasi elitasına etibar etmir. Rusiyada Ermənistandakı yeni hakimiyyətə ehtiyatla yanaşırlar. Ötən il ərzində Moskva rəsmi Yerevandan bir dostyana jest belə görməyib. Paşinyan vaxtaşırı Rusiya ilə tərəfdaşlıq və dostluqdan dəm vurur. Bununla belə, Ermənistan NATO ilə tərəfdaşlıq üzrə bütün proqramları qoruyub saxlayır və onların genişləndirilməsi ilə bağlı danışıqlar aparır. Ermənistan və Avropa İttifaqı arasında 2017-ci ilin dekabr ayında imzalanmış assosiasiya haqda müqavilə hələ də qüvvədədir və bu sənəd öz növbəsində Avrasiya İqtisadi Birliyi çərçivəsində qəbul olunmuş vahid gömrük tarifləri üzrə siyasətlə ziddiyyət təşkil edir.

Ermənistan ötən ilin sentyabr ayından etibarən faktiki olaraq KTMT-nin işinə əngəl yaradır. Moskva belə bir şəraitdə Yerevanın Avrasiya İqtisadi Birliyinin sıralarını tərk edəcəyindən ehtiyatlanır. Belə bir gedişat yeni yaranmış təşkilata ağır zərbədir. Kreml eyni zamanda Ermənistanın hərəkətlərinin KTMT-nin təməllərini sarsıda biləcəyindən ehtiyat edir. Ölkə, bundan əvvəl də dediyim kimi, KTMT-nin işini əngəlləyir. Bu müstəvidə, demək olar ki, Rusiya ilə Ermənistanın münasibətləri daha da pisləşəcək".

Hesab olunur ki, bu münasibətlərin pisləşməsi fonunda Ermənistan sosial-iqtisadi, siyasi cəhətdən ağır vəziyyətə düşərək regionda daha zəif mövqe sahibinə çevriləcək.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# REGİONLAR



# Çəkilən zəhmət əvəzsiz qalmır











*Əvvəli 1-ci səh.*

Rayonda kənd təsərrüfatının ənənəvi sahələrinin inkişafı ilə yanaşı, istehsal müəssisələrinin fəaliyyətinin genişləndirilməsinə, yeni istehsal sahələrinin yaradılmasına da diqqət yetirilir. Buna "Şəmkir Aqroparkı"nı misal göstərmək olar. Parkın fəaliyyəti genişləndirilmiş, 48 hektar sahədə meyvə bağı salınmış, 180 hektar sahədə müxtəlif növ bitkilər əkilmişdir.

"Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Şəmkir filialında il ərzində 156 xalça toxunmuşdur. Hazırda müəssisədə 81 toxucu və 12 inzibati təsərrüfatçı çalışır. Şəmkir şəhərində istifadəyə verilmiş və gündəlik istehsal gücü 50 ton olan "Platek House" MMC-nin "Nəfis çörək" zavodunda keçən il 6840 ton çörək bişirilmişdir.

Mehrili kəndi ərazisində "Azfarel" MMC balıqyetişdirmə və emalı müəssisəsinin tikintisinə başlanılmışdır. Bu müəssisədə 250 nəfərin işlə təmin edilməsi nəzərdə tutulmuşdur. İnvestor Zeynal Əliyevin tikdirdiyi, tutumu 10 min ton olan buğda anbarının və sutkalıq istehsal gücü 200 ton olan un fabrikinin inşası başa çatdırılmışdır.

Aqrar sahəyə diqqətin artırılması sayəsində hər il rayonda torpaq sahibləri uğurlu göstəricilərə nail olurlar. Əkin sahələrini ildən-ilə artıran fermerlər keçən il 16824 hektar sahədə taxıl yetişdirmiş, 336 hektar sahədə meyvə və giləmeyvə bağı salmışlar. 556 hektar üzüm bağından 22 min 594 ton məhsul yığılmışdır.

Rayonda baramaçılıq da inkişaf edir. Barama istehsalını artırmaq və bu sahədə qarşıya çıxan problemləri vaxtında həll etmək məqsədilə rayon icra hakimiyyətində qərargah yaradılmışdır. Həyata keçirilən tədbirlər nəticəsində keçən il 12 min 691 kiloqram barama istehsal edilmişdir.

Məlum olduğu kimi, respublikamızda fəaliyyət göstərən istixanaların çoxu Şəmkir rayonundadır. Hazırda rayondakı istixanaların ümumi ərazisi 1022 hektardan çoxdur. Bu sahədə zəngin təcrübə toplayan təsərrüfat sahibləri ildən-ilə istixanaların sahəsini genişləndirirlər. Mövcud istixanalarda 116 min 943 ton pomidor, 23 min 215 ton xiyar və digər məhsullar yetişdirilmişdir. Yetişdirilən məhsulun 70 faizindən çoxu Rusiya Federasiyasına ixrac olunmuşdur.

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq rayon mərkəzi ilə yanaşı, kənd və qəsəbələrdə də abadlıq və yenidənqurma işləri davam etdirilmişdir. Şəmkirdə 3 və 5 saylı körpələr evi-uşaq bağçasının, Kür qəsəbəsi, Keçili, Qaracəmirli və Dəllər-Cırdaxan kənd körpələr evi-uşaq bağçalarının əsaslı təmiri, Şəmkir şəhərində qəzalı vəziyyətdə olan beşmərtəbəli yaşayış binasının yerində yeni binanın tikintisi başa çatdırılmışdır.

Rayonda avtomobil yollarının yenidən qurulması da davam edir. Şəmkir-Abbaslı-Nərimanlı avtomobil yolunun 15 kilometr hissəsi yenidən tikilərək istifadəyə verilib. Bu il isə uzunluğu 32,9 kilometr olan Şəmkir-Zəyəm-Düyərli-Şiştəpə-Bayramlı avtomobil yolunun yenidən qurulmasını başa çatdırmaq nəzərdə tutulmuşdur.

Onu da qeyd edək ki, qazanılan uğurlar şəmkirliləri arxayınlaşdırmır, ölkədə aparılan genişmiqyaslı işlərə öz töhfələrini vermək əzmi ilə çalışırlar.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Qax şəhəri üzrə müfəssəl plan hazırlanır



Qax rayonunda bütün təsərrüfat subyektləri müəyyənləşdirilmiş iş qrafiki əsasında fəaliyyət göstərir. Abadlıq-quruculuq istiqamətində görülən işlərlə yanaşı, baharın gəlişi ilə bağlı kəndlərdə də əmək qaynayır. Tütünçülər şitillərin sahələrə köçürülməsinə, kümçülər ipəkqurdu toxumunun dirildilərək barama istehsalına, istirahət mərkəzləri turistlərin qəbuluna hazırlaşırlar.

Ümumilikdə 2018-ci il də Qax üçün uğurlu olub. Rayon icra hakimiyyətinin başçısı Musa Şəkiliyev deyir ki, ölkə rəhbəri İlham Əliyevin Qaxa keçənilki səfəri zamanı rayonda aparılan quruculuq işlərinə, insanların əməyinə verdiyi yüksək qiymət hər bir qaxlını ruhlandırmaqla yanaşı, məsuliyyətini artırıb, yeni uğurlara stimul verib.

- Bu gün rayondakı sosial-iqtisadi sahələrin, xüsusilə turizmin və kənd təsərrüfatının inkişafına, sakinlərin sosial rifahına və rahatlığına xidmət edən bir çox obyektlər məhz Prezidentin səfərləri çərçivəsində, onun xeyirduası ilə istifadəyə verilib. Ötənilki səfər zamanı da Prezident rayonda bir sıra sosial infrastruktur obyektlərinin - Qax-Qıpçaq-Ağyazı avtomobil yolunun, "Yurd Hotel" mehmanxanasının, Qax Aqroparkının və yenidən qurulan Qax Damazlıq İpəkçilik Stansiyasının açılışlarında iştirak etdi.

Ötən il Prezidentin müvafiq sərəncamları ilə 4 min nəfər əhalinin yaşadığı 13 yaşayış məntəqəsini birləşdirən Qax-Qıpçaq-Ağyazı avtomobil yolunun tikintisi üçün 15,1 milyon, Əlibəyli kəndində 216 şagirdlik yeni ümumtəhsil məktəb binasının tikintisi üçün ilkin olaraq 1 milyon, Qax şəhərində istismar müddəti başa çatmış çoxmənzilli binaların sakinlərinin mənzil-məişət şəraitini yaxşılaşdırmaq üçün 48 mənzilli yaşayış binasının tikintisinə 3 milyon manat vəsait ayrılmışdır. Artıq Əlibəyli kəndində məktəb binasının, şəhər ərazisində 48 mənzilli yaşayış binasının tikintisinə başlanılıb. Qax-Qıpçaq-Ağyazı avtomobil yolu isə istifadəyə verilib.




"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda rayon üçün nəzərdə tutulmuş 21 bənddən ibarət tədbirlərin icrası da uğurla həyata keçirilib. Proqramın icrası çərçivəsində ötən 5 il ərzində rayonda inzibati binalar, Qarabağ müharibəsi əlilləri üçün fərdi evlər, yeni məktəb binaları, uşaq bağçaları, səhiyyə obyektləri, sahə baytarlıq məntəqələri, turizm obyektləri, yeni körpülər və beton bəndlər tikilib, yaşayış məntəqələrinin qazlaşdırılması davam etdirilib, artezian və subartezian quyuları qazılıb, yollar asfaltlanıb. 2548-i daimi olmaqla 2637 yeni iş yeri açılıb.

Bunlardan əlavə, Qax şəhərindəki bir çox binaların həyətlərində xeyir-şər yerləri tikilib, həyətlər asfaltlanıb, abadlaşdırılıb, dam örtükləri dəyişdirilib, qeyri-məşğul əhalinin ödənişli ictimai faydalı əmək fəaliyyətinə cəlb edilməsi yolu ilə kommunal yaşayış binasının fasadlarında təmir işləri aparılıb.

Bunlardan əlavə, Qıpçaq kəndində 35 yerlik körpələr evi-uşaq bağçası tikilib, Qaxingiloy və Qum kənd körpələr evi-uşaq bağçalarında təmir işlərinə başlanılıb, Qaradolaq, Qarabaldır, Qapıçay və Əmircan kəndlərində isə modul tipli məktəblərin tikintisində tamamlama işləri gedir. Tasmalı və Əlibəyli kəndlərində tam orta məktəb binalarının, Fıstıqlı və Aşağı-Malax kəndlərində modul tipli məktəblərin tikintisi davam etdirilib, Çinarlı kəndində modul tipli məktəbin tikintisinə başlanılıb.

Nazirlər Kabinetinin 6 noyabr 2018-ci il tarixli sərəncamı ilə Qax şəhəri üzrə müfəssəl planın hazırlanması üçün vəsait ayrılıb. İşlərin görülməsi üçün Bakı Dövlət Layihə İnstitutu ilə müqavilə bağlanılıb. İndi müfəssəl planın hazırlanması ilə bağlı işlər davam etdirilir.

Ötən il həmçinin Baydarlı kəndində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Qarabağ müharibəsi əlilinə fərdi yaşayış evinin, İlisu kəndində "Uludağ" Turizm və İstirahət Kompleksində 65 yerlik hotelin və Ağçay kəndində "Bergs" hotelində yeni korpusun tikintisi başa çatdırılıb. Qax şəhərinin su və kanalizasiya sisteminin yenidən qurulması işləri davam edir.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***

# Uğurlar davam edəcək

## *Hacıqabulda görülən işlər inkişafın yeni mərhələsi üçün möhkəm təməl yaratmışdır*

Hacıqabulun bugünkü xoş növrağını görəndə istər-istəməz ən yeni tariximizin 1990-cı illəri göz önündən gəlib keçir. O vaxt rayon təzə təşkil edilmişdi. Öncə uzun müddət Şirvan (o zaman Əli Bayramlı) şəhərinin tərkibində qəsəbə olmuşdu. 1990-cı illərin məlum hadisələri bu rayonun da taleyindən yan keçmədi. Sovetlər dövründən nə qalmışdısa, demək olar ki, hamısı dağıdılaraq yerlə-yeksan edildi.









İqtisadiyyat bərbad hala düşsə də bir təsəllimiz vardı: xalqımız əsrlərlə həsrətində olduğu müstəqilliyinə qovuşmuşdu. Sonrası özümüzdən asılı idi. 1993-cü il iyunun 15-də yenidən hakimiyyətə gələn ulu öndər Heydər Əliyevin polad iradəsi, gərgin əməyi, uzaqgörən siyasəti sayəsində ölkəmiz düşdüyü fəlakət burulğanından çıxmağı bacardı. Sabitlik yarandı, "Əsrin müqaviləsi" imzalandı, islahatlar həyata keçirildi. 2003-cü ilin ikinci yarısından neftdən gələn ilk gəlirlər qaçqın və köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması, ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi və digər mühüm məsələlərlə yanaşı, həm də regionların sosial-iqtisadi inkişafına yönəldildi. Bununla bağlı 2004-cü il fevralın 11-də Prezident İlham Əliyev I Dövlət Proqramını imzaladı. Beləliklə, regionlarda inkişaf dövrü başladı.

Yeni yaradılmış Hacıqabul rayonunda da çox iş görmək lazım gəlirdi. Odur ki, bütün qüvvələri səfərbər etmək, ayrılmış vəsaitin hər manatından səmərəli istifadə etmək və illərdən bəri üst-üstə qalanmış problemləri həll etmək tələb olunurdu. Aparılan tikinti-quruculuq, abadlıq işləri rayon mərkəzinin, qəsəbə və kəndlərin simasını aydan-aya, ildən-ilə dəyişdi. Yeni obyektlər, təhsil, səhiyyə, mədəniyyət ocaqları tikildi, parklar, xiyabanlar salındı, müasir istehsal sahələri yaradıldı və bunun hesabına çoxsaylı iş yerləri açıldı. Regionların sosial-iqtisadi inkişafı II və III dövlət proqramları çərçivəsində görülən işlərin miqyası daha da genişləndirildi.

2007-ci ilin avqust ayında əsaslı şəkildə yenidən qurulan rayon Mərkəzi Xəstəxanası, 2009-cu il sentyabrın 3-də yeni tikilmiş Uşaq Tibb Mərkəzi istifadəyə verildi. 5 min 240 yerlik 19 məktəb, o cümlədən Heydər Əliyev Fondunun "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində 1460 şagirdlik 6 məktəb binası tikildi. 3 min 294 şagirdlik 8 məktəb binası təmir olundu. Məktəb tikintisi indi də davam etdirilir. Məlumdur ki, uşaq bağçaları azyaşlıların məktəbə hazırlanmasında baza rolunu oynayır. Bu məqsədlə uşaq bağçası və körpələr evi əsaslı təmir edilmiş, yeni uşaq bağçası tikilib istifadəyə verilmişdir. Qeyd etmək lazımdır ki, bir neçə il bundan əvvəl daxili imkanlar hesabına rayonda bir neçə idman qurğusu yaradılmışdır.

1959-cu ildə inşa olunan rayon Mədəniyyət evi əsaslı təmir olunmuş, Pir Hüseyn Xanəgahında bərpa işləri aparılmış, Xanəgaha gedən 18 kilometrlik yol yenidən qurularaq istismara verilmişdir. Şəhərdə ulu öndər Heydər Əliyevin adını daşıyan Mərkəz də yenidən qurulmuşdur.

2010-cu ilin yazında Kür çayının daşması Hacıqabul rayon camaatını sınağa çəkdi. Onlar dövlətin maddi köməyi ilə təbii fəlakətin fəsadlarını tezliklə aradan qaldırdılar. Su altında qalmış 258 ev yenidən tikilib vətəndaşlara verildi, zərərçəkənlərə 535 min manat məbləğində kompensasiya ödənildi.

Pilot layihələr çərçivəsində elektrik təsərrüfatının yenidən qurulması, habelə təbii qaz xəttinin çəkilişində rayon birincilər sırasında oldu. Bununla əhalinin işıq, təbii qaz problemi aradan qaldırıldı. Rayon mərkəzinin və digər yaşayış məntəqələrinin içməli suya olan tələbatı həll edildi.

Hacıqabulda sənayenin inkişafı ilə bağlı da xeyli iş görülmüşdür. Bu barədə danışarkən ilk növbədə 2013-cü il aprelin 15-də istifadəyə verilmiş seramik plitələr zavodu yada düşür. Müəssisə İtaliyanın "ASCMI" şirkətinin avadanlıqları ilə təchiz edilmişdir. 500 nəfərdən çox adamın çalışdığı müəssisənin müxtəlif adda məhsulları yerli bazarla yanaşı, xarici ölkələrə də ixrac edilir.

Ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə görülən tədbirlər nəticəsində indi respublikamız nəinki özünü təmin edir, hətta xarici ölkələrə də quş əti ixrac edir. Belə göstəricinin əldə olunmasında "Hacıqabul Quşçuluq" şirkəti kollektivinin də xüsusi payı var. Hazırda müəssisədə 600-ə yaxın işçi çalışır.

Yol infrastrukturunun yeniləşməsi sahəsində rayonda mühüm işlər görülmüşdür və bunlar hazırda da davam etdirilir. Ötən illər ərzində rayon iqtisadiyyatında istər sənaye, istərsə də kənd təsərrüfatında əsaslı dönüş yaranmış, əhalinin rifahı xeyli yaxşılaşmışdır.

Adıçəkilən obyektlərin, demək olar ki, hamısının təməlqoyma və istifadəyə verilməsi mərasimində ölkə rəhbəri cənab İlham Əliyev iştirak etmişdir.

Hacıqabul bu gün inkişafın yeni mərhələsindədir. Dövlətin prioritet məsələ kimi qarşıya qoyduğu iqtisadi siyasət kursu uğurla həyata keçirilir. Ölkə əhalisini bol və keyfiyyətli kənd təsərrüfatı məhsulları ilə təchiz etmək, idxaldan azad olmaq, yeni iş yerləri yaratmaq kimi məsələlərin icrası üçün ardıcıl tədbirlər görülür. Fermerlərin, torpaq mülkiyyətçilərinin texnikaya, mineral gübrələrə, əkin suyuna olan tələbatının ödənilməsi diqqət mərkəzində saxlanılır.

Hazırda bu istiqamətdə "Pirsaat massivində 4 min 800 hektar əkinəyararlı torpaq sahəsinin suvarma suyu ilə təmin edilməsi layihəsi" çərçivəsində işlər görülür. Layihənin mahiyyəti mənbəyi Kür çayı olmaqla 27,6 kilometr məsafədən 4 min 800 hektar əkinəyararlı torpaq sahəsinə suvarma suyunun çıxarılmasıdır. Uzunluğu 4 min 905 metr olan kanalın yenidən qurulması, habelə 3,6 kilometr uzunluğunda beton kanalın tikintisi və 7,4 kilometr uzunluğunda ikixətli boru xəttinin çəkilişi, 35/6 kilovoltluq yarımstansiyanın, üzən nasos stansiyasının qurulması və nasosa xidmət edən binaların tikintisi başa çatdırılmışdır.

Son illər rayonda aqroparkların yaradılması istiqamətində də tədbirlər həyata keçirilmişdir. Padar qəsəbəsi ərazisində "Azərsun Holdinq" tərəfindən 1625 hektar sahədə aqropark yaradılmış, burada 777 hektar sahədə pivot sistemi, 75 hektarda damcı suvarma sistemi quraşdırılmış, müasir texnikalar alınmış, ofis, anbar, işçilər üçün yeməkxana, qaraj tikilmişdir. Keçən il 490 hektar buğda sahəsindən 4 min 461 ton, 791 hektar arpa sahəsindən 1938 ton, 117 hektar çuğundur sahəsindən 6 min 520 ton, 20 hektar soya sahəsindən 40,9 ton məhsul əldə edilmişdir. 2019-cu ilin məhsulu üçün 212 hektarda buğda, 516 hektarda arpa əkilmişdir.

Aqroparkda illik istehsal gücü 20 min ton süd olan 2 min başlıq heyvandarlıq kompleksində son tamamlama işləri gedir. Təsərrüfatın istifadəyə verilən hissəsində mal-qaraya aqrotexniki qaydada qulluq edilir və indiyə kimi 1339 baş cins mal-qara alınıb gətirilmişdir.

Meyniman kəndində 2 min hektar torpaq sahəsi olan "Muğan Aqro" MMC-yə məxsus aqroparkda infrastruktur yaradılmış, 2 mal, 4 qoyun tövləsi, yem anbarı, inzibati və yardımçı binalar tikilmişdir. Qoyunların sayı 1560-a çatdırılmışdır. Ötən il hər birinin sahəsi 2 hektar olan 5 müasir tipli istixana tikilmişdir. 110 hektar buğda sahəsindən 380 ton, 120 hektar arpa sahəsindən 285 ton, 174 hektar yonca sahəsindən isə 2 min 440 ton məhsul əldə edlmişdir. 20 hektarda soğan, 80 hektarda pambıq, 250 hektarda qarğıdalı əkilmiş, 57 hektarda yeni meyvə bağı salınmış, bağların ümumi sahəsi 114 hektara çatdırılmışdır. Bunlardan əlavə, illik istehsal gücü 5 min ton süd olan 700 başlıq heyvandarlıq kompleksi yaradılmışdır. Hazırda təsərrüfatda 264 baş inək, 221 buzov bəslənilir. 2019-cu ilin məhsulu üçün 60 hektarda buğda, 100 hektarda arpa səpini aparılmışdır.

Rayon ərazisində müasir tipli iri taxılçılıq və yemçilik təsərrüfatlarının yaradılması məqsədilə 30 min hektar sahənin təyinatı dəyişdirilərək əkin kateqoriyasına keçirilmişdir. "Aqro Dairy" MMC tərəfindən bu ərazidə 100 və 35 kilovoltluq yarımstansiyalar tikilmiş, 17 kilometrlik su xəttinin çəkilişi başa çatdırılmışdır. 7 min hektarı əhatə edən pilot suvarma sistemləri quraşdırılmışdır. Növbəti illərdə aqroparkın əkin sahələrinin tamamilə pilot suvarma sistemi ilə əhatə olunması nəzərdə tutulmuşdur. Ötən ilin payızında cari ilin məhsulu üçün burada 19 min 830 hektara buğda, 1670 hektara arpa, 348 hektara yonca əkilmişdir.

Rayonun Atbulaq kəndində 19 hektar torpaq sahəsində illik istehsal gücü 9,6 milyon yumurta olan "AZERBROOD" MMC quşçuluq müəssisəsinin tikintisində işlər davam etdirilir. 2 sektorda işlər başa çatdırılmışdır. Qalan 3 sektorda tamamlama işləri görülür. Müəssisə fəaliyyətə başlayanda burada 100 nəfər çalışacaq.

Atbulaq kəndində daha bir istehsal sahəsi, "Hajiqabul Greenhouse" MMC tərəfindən 17 hektar ərazinin 10 hektarında İspaniya texnologiyası ilə istixana tikilib istifadəyə verilmişdir. Layihənin ümumi dəyəri təqribən 40 milyon manatdır. Burada hər hektarın məhsuldarlığı 250-300 tondur. Müəssisədə 70 nəfər işlə təmin edilmişdir.

Rayonda fermerlər və torpaq sahibkarları üçün də şərait yaradılmışdır. Bunun nəticəsidir ki, qazanılan nailiyyətlər ürəkaçandır. Belə ki, keçən il taxılçılıq üzrə göstəricilər əvvəlki illərdəkindən çox olmuşdur. Cari ilin məhsulu üçün keçən ilin payızında 25 min 925 hektarda buğda, 11 min 8 hektarda arpa, 353 hektarda yonca, 321 hektarda isə xəsil əkilmişdir. Nümunəvi qulluq nəticəsində sahələrdə bol məhsul yetişir.

Rayonun iqtisadi coğrafiyasında yer alan istehsal sahələrindən biri də ölkə rəhbəri İlham Əliyevin 2017-ci il 25 iyul tarixli sərəncamına əsasən yaradılmış Hacıqabul Sənaye Məhəlləsidir. Məlum olduğu kimi, bu ilin fevralında sənaye məhəlləsində "Azərmaş" ASC-nin Rusiyanın "ZAQ Qrup" şirkəti ilə imzaladığı razılığa əsasən avtomobil zavodunun təməli qoyulmuşdur. Dəyəri 14 milyon manat olan layihə üzrə zavodda ildə 1000 ədəd avtomobil istehsal ediləcək.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# 15 may Beynəlxalq Ailə Günüdür

# Ailəmizin günü

Ailə nədir?
İki şəxsin həyatını birləşdirdikdən sonra uşaq sahibi olub onu böyütdüyü bir evmi?
Qadının təmizlik, yemək bişirmək, paltar yumaqla keçirdiyi, kişinin isə axşama qədər işləyib pul qazanaraq gətirməsi vacib olan kiçik bir dünyamı?
Təbii ki, belə deyil və olmamalıdır...
Əslində ailə hansısa sözlərlə ifadə ediləcək bir məfhum da deyil. Ailə hislər üzərində qurulan bir bağ olduğu üçün onu sözlə ifadə etmək, hansısa modelə uyğunlaşdırmaq, çərçivələr cızmaq mümkün deyil...
Ailə olmaq birlikdə gülüb, birlikdə ağlamaq...
Acılı-şirinli günləri birlikdə paylaşaraq həyatda güclü qala bilmək...
Kiçicik bir ana sonsuz xoşbəxtlik sığdırmaq...
Mən və səni birləşdirib "biz"i yaratmaqdır...



Qədim Azərbaycan ailəsi - Şuşa, 1882-ci il

## Azərbaycanda 2 milyondan çox ailə var

15 may dünyada Beynəlxalq Ailə Günüdür. BMT Baş Assambleyasının 1993-cü il qətnaməsinə müvafiq olaraq, 1994-cü ildən etibarən keçirilir. Bu günün təsisində məqsəd dünya miqyasında bütün insanların diqqətini ailələrə və onların problemlərinin həllinə yönəltməkdir. Azərbaycan bu ənənəyə 2008-ci ildən qoşulub.

Ailə cəmiyyətin ən kiçik modelidir, amma elə onun ən vacib təməl dirəyidir. Möhkəm ailə bağları olan ailələrdə böyüyən uşaqlar cəmiyyətin ən sağlam və layiqli vətəndaşları olurlar. Hər zaman ölkəmizdə də ailə dəyərləri üstün tutulub, tarixən formalaşaraq hazırkı günümüzə qədər ötürülən bu milli dəyərlər müasir həyatda da yüksək qiymətləndirilir.

Statistik göstəricilərə əsasən, hazırda Azərbaycanda 2.103.568 ailə mövcuddur.

"Ölkəmizdə ailələrin rifahının daha da yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər görülür. Ailə institutunun inkişafı istiqamətində fərman və sərəncamlar imzalanıb, proqramlar həyata keçirilir. Ailə dəyərlərinin qorunub saxlanılaraq gələcək nəsillərə ötürülməsi, ailədə sülh və dözümlülük mədəniyyətinin, sağlam həyat tərzinin təbliği məqsədi ilə xeyli işlər görülür" deyən Milli Məclisin Ailə qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı bildirir ki, Azərbaycan dövlətinin diqqətində olan məsələlərdən biri də ailə institutunun möhkəmləndirilməsidir. Ölkəmizdə olan ailələrin sağlamlığı, xoşbəxtliyi, rahatlığı üçün dövlət və cəmiyyət məsuliyyət daşıyır. Azərbaycan xalqı hər zaman ailə dəyərlərini, ailə ləyaqətini hər şeydən uca tutmuş və bu, bizim milli adət-ənənəyə çevrilmişdir. Hazırda Azərbaycan ailəsi dünyada ən yaxşı ailə modellərindən biri hesab olunur.

## "Aparılan siyasət ailələrin sosial təminatının yaxşılaşdırılmasına yönəlib"

Aqiyə Naxçıvanlı söyləyir ki, müstəqil Konstitusiyamızın müəllifi Heydər Əliyev bu ali sənəddə ailənin mahiyyətini, ailə üzvlərinin hər birinin vəzifələrini xüsusi maddələrdə müəyyən edib. Eləcə də 2000-ci ildə Ailə Məcəlləsinin qəbul olunması nəticəsində ailə üzvlərinin digər hüquq və vəzifələri ilə yanaşı mülki hüquqları da təsbit olunub.

Ailə üzvlərinin, xüsusilə də ana və uşaqların sağlamlığının mühafizəsi istiqamətində önəmli addımlar atılır: "Bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında dövlət ailə siyasəti uğurla həyata keçirilir. Prezidentin sərəncamı ilə ana və uşaqların sağlamlığının yaxşılaşdırırlmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramı təsdiq olunub. Hazırda ölkəmizdə ailələrin rifahının daha da yaxşılaşdırılması istiqamətində olduqca mühüm tədbirlər həyata keçirilir. Gənc ailələrə güzəştli ipoteka krediti verilir. Qanunvericilik bazasında Ailə Məcəlləsinə, həmçinin gənclər siyasəti, təhsil, sosial təminat haqqında qanunlara və Prezidentin digər fərman və sərəncamlarına uyğun olaraq aparılan siyasət ailələrin sosial təminatının yaxşılaşdırılmasına yönəlib. Elə son dövrdə Prezidentin həyata keçirdiyi sosial siyasət nəticəsində minlərlə ailəyə, xüsusilə də aztəminatlı ailələrə böyük güzəştlər verilib. Məvaciblərin, pensiyaların, çoxuşaqlı ailələrə verilən uşaq pullarının artırılması ailələrin sosial-maddi inkişafına böyük təsir edəcək. Bir sözlə, bu gün dövlət tərəfindən ailələrin xoşbəxt olması üçün bütün şərait yaradılıb".

## Dağılan tifaqlar...

Amma o da faktdır ki, müasir dövrdə ailə dəyərlərinə və onun qorunmasına yanaşma tamamilə fərqlidir. Təkcə ötən il ölkəmizdə 14.857 ailə boşanıb. Təbii ki, bu ailə dəyərlərinə böyük əhəmiyyət verən Azərbaycan cəmiyyəti üçün mənfi göstəricidir.

Səbəb isə müxtəlif amillərlə izah edilir. Məsələn, yaşlı nəslin nümayəndələri daha çox bunu müasir zamanla əlaqələndirir, ailədə yaşlı, ağsaqqal, ağbirçək sözünü dinləməməyin nəticəsi hesab edirlər.

Gənclər isə, əksinə, ailə yaşamlarına kənar müdaxilələrin çox olmasından gileylənirlər. Yəni bu məsələdə yekdil bir fikrə gəlinməyib...

Aqiyə Naxçıvanlı bildirir ki, ailə ənənələri ən qiymətli xəzinə kimi əsrdən-əsrə, nəsildən-nəslə ötürülüb, xalqımız hər zaman onu göz bəbəyi kimi qoruyub yaşadıb. Ailə hər bir fərdin gələcəyə uzanan yolda dayağı, ümidi, güvənc yeri olmalıdır. Ailə qarşılıqlı mənəvi, hüquqi məsuliyyətlə bağlı olan kiçik sosial birlikdir. Tarixin hər bir mərhələsində ailə cəmiyyətin inkişafında mühüm rol oynayıb. İnsanın kamilləşməsində, onun şəxsiyyətə çevrilməsində ailənin rolu hər zaman öz əhəmiyyətini saxlayır: "Təəssüf ki, ailələrin dağılması, bütövlüyünün pozulması əsasən cəmiyyətdə mövcud olan neqativ halların ailələrə daxil olması səbəbindəndir. İnformasiya-kommunikasiya texnologiyaları əsrində, qloballaşan dünyada yaşayırıq. Şübhəsiz, bu qloballaşma həyatımıza yalnız müsbət yox, mənfi xüsusiyyətlər də daxil edir. Bununla da biliyi, savadı, dünyagörüşü az olan insanlar həmin mənfi təsirin altına düşür. Bu səbəbdən də hər birimizin əsas vəzifəsi ailələri qorumaqdır. Onların dağılmaması üçün kömək etmək lazımdır. Burada vətəndaş cəmiyyətinin də rolu böyük olmalıdır. Bizim əsas dəyərimiz ailələrimizdir. Təəssüf ki, son zamanlar bəzi gənclərimiz ailə quranda hər şeyi düşünüb daşınmır, tələskənliyə yol verirlər. Xüsusilə də onların ailələri tanış olmalı, bir-birlərini yaxşı tanımalıdırlar. Bəzən elə valideynlərin özləri ailələrin dağılmasına səbəb olur. Onların şəxsi ambisiyaları, istəkləri, baxışları buna yol açır".

Komitə sədri vurğulayır ki, əvvəllər eşidəndə hansısa bir ailə boşanıb, o, sensasiya hesab olunurdu. Amma indi dövr tam fərqlidir, bəzən ailələr əhəmiyyətsiz məsələyə görə dağılır. Bir də elə ailə var ki, ailə başçısı pis vərdişlərin aludəçisidir və burada biz gözləməməliyik ki, kimsə kiməsə şiddət göstərsin, fiziki zorakılıq etsin, bu cür ailələrin mövcud olması məsləhət deyil. Amma statistika göstərir ki, bir çox ailələr vacib səbəb olmadan boşanırlar: "Azərbaycanda hər zaman uzunömürlü ailələr olub və indi də var. Əvvəl ailə qurulanda yaşlılar tövsiyələrini verir, gənclərə bir-birinə hörmət etmələrini, çətinliklərə birgə sinə gərməyi, dözümlü olmağı, güzəştə getməyi məsləhət verirdilər. Bu xüsusiyyətlər ailənin möhkəm olması üçün vacibdir. İndi bizim bəzi gənclərdə həmin səbr, güzəşt yoxdur, başa düşmək istəmirlər, hər biri öz ambisiyasını yeritmək istəyir. Bu məsələlər ailələrdə tərbiyə edilməlidir. Düşünürəm ki, hər bir ailə öz milli dəyərlərinə söykənsə, babadan, nənədən gələn adətlərini örnək götürsə, daha möhkəm olar".

## Günahsızlar...

Boşanmaya gətirib çıxaran səbəblərdən asılı olmayaraq, dağılan ailələrin altında əzilənlərdən birincisi uşaqlar olur...

Aqiyə Naxçıvanlı da söyləyir ki, boşanmalar ən çox uşaqlara zərbə vurur, onlara ömür boyu yaşayacaqları travmalar verir: "Uzun-uzadı məhkəmə proseslərində rast gəlirik ki, uşağı hərə öz tərəfinə çəkmək istəyir. Düşünmürlər ki, bununla uşağın psixologiyasına sarsıntı verirlər. Bəzən görürsən ki, bəlkə də həmin valideynləri uşağın taleyindən çox şəxsi eqoizmləri maraqlandırır. Burada hansısa prinsiplər, aliment, mal-mülk məsələləri daha öndədir, buna görə də sadəcə uşaqdan istifadə edirlər.

Düşünürəm ki, yeni ailə quran gənclər arasında mütləq nikah müqaviləsi olmalıdır. Belə olarsa hər iki tərəf üzərinə düşən məsuliyyəti bilər və uşaqlar da ortada qalmaz. Son zamanlar bizə alimentin ödənilməməsi ilə bağlı həddindən çox müraciətlər gəlir. Bu həm də məhkəmə icraçılarının laqeydliyindən irəli gəlir. Deyirlər ki, kimisə tapmadıq, ölkədə yoxdur və s. Düşünürəm ki, alimenti ödəməyənlərin ölkədən çıxışına qadağa qoyulmalıdır. Həmçinin alimentdən iki dəfə artıq cərimə tətbiq olunarsa, bu, həmin şəxslərin məsuliyyətini artırar".

## Xoşbəxt ailə qurmağın tərifi...

Aparılan araşdırmalara əsasən demək olar ki, evliliklərin ilk 5 ili ən kritik dövrdür. Çünki iki fərqli insanın qısa zaman ərzində bir-birini olduğu kimi qəbul etməsi asan deyil.

Artıq zaman da o zaman deyil ki, ailənin müqəddəratını el ağsaqqalları yığışıb həll etsin və həm də o zaman deyil ki, gənclər doğru sandıqları yolla əks istiqamətə üz tutsunlar.

Bu günün ailəsinin gələcək xoşbəxtliyi ailə quracaq cütlüklərin sevgisindən, ailənin əsl mahiyyətinə varmalarından keçir...

Ailənin var olması üçün əsas şərt sevgi və güvəndir. Bunlara əsaslanmayan münasibətdən xoşbəxt ailə yaratmaq mümkün deyil.

Fiziki, yaxud da psixoloji şiddət istifadə edilməyən ailə şəraitində ailə üzvləri özlərini daha dəyərli hiss edir, həmin ailələrdə böyüyən uşaqlar da daha xoşbəxt olurlar.

Bəzən yeni ailə quranlar elə düşünürlər ki, evləndikdən sonra həyatlarında hər şey nağıl dünyasına çevriləcək, heç bir problemləri olmayacaq, yalnız şənlənəcək, deyib güləcəklər. Bunun əksi ilə rastlaşdıqda isə xəyal qırıqlığına uğrayır, dərhal bu evliliyə son vermək barədə düşünürlər...

*Amma evlilik də yaşanan həyatın mühüm parçasıdır və o ayrı dünya deyil...*

*Ağrı-acının, sevincin, kədərin iç-içə yaşandığı bir dünya...*

*Əslində xoşbəxt ailə qurmağın tərifi o qədər sadədir ki...*

*Nə qədər çox işiniz olsa da, bir süfrə arxasında yığışmaqdır ailə olmaq...*

*Və əgər bunu bacarmırsınızsa, demək heç ailə deyilsiniz...*

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

Ailə dövlətdir! Ailə Vətəndir! Ailə sevgidir, səadətdir!
Ailə mərhəmət, ailə hikmətdir!
Körpə nəvazişindən müdriklik əlçatmazlığınadək yoldur ailə!
Tarix, etnoqrafiya, məişət, milli adət-ənənələr həm də xalq tərəfindən yaradılan sənətkarlıq nümunələrində nəsildən-nəslə yaşadılır. Bunların da yolu ailədən başlayır.
Zərgərlik məmulatları, zinyət əşyaları, soyuq silahlar, çini, şüşə, ağac və daş üzərində oyma, tikmə, parça, kişi, qadın, uşaq milli geyimləri, zərif naxışlı bədii metal nümunələri və s. kimi tətbiqi sənət nümunələri bu gün də özünəməxsusluğu və unikallığı ilə seçilir, qorunub saxlanılır.
Bu günlərdə keçirilən satış-sərgidə ziyarətçilərə təqdim olunan, zərifliyi ilə daha çox diqqəti cəlb edən sənətkarlıq nümunələrinə atalar demiş: "Baxmağa iki göz də az idi". "Jurnalistikadan incəsənətə" adlı satış-sərgidə nümayiş etdirilən, bir ailənin yaratdığı LATİS brendli tətbiqi sənət nümunələri haqqında ayrıca söz açmağa dəyər.



# Jurnalistikadan incəsənətə

## Bir ailənin yaratdığı LATİS brendi zərgərliklə tətbiqi sənəti sintezləşdirib











## Sənətdən sənətkarlığadək...

Bir-birindən maraqlı, incə zövqlə işlənmiş sandıq və sandıqçalar, eləcə də müxtəlif zərgərlik məmulatları ilə bəzədilən digər məişət əşyaları nəinki Şərq aləmini, hətta avropalıları da heyran qoyan sənətkarlıq nümunələri idi. Sənət incisi olan bu əl işləri, sözün əsl mənasında, dünyanın ən aparıcı, tanınmış muzeylərinin ekspozisiyasının bəzəyinə çevrilə bilər. Təəssüf ki, onlar indiyə kimi sənət əsərləri sərgilərində nümayiş etdirilməyib.

"Azərkitab" və Azərbaycan Mətbuat Şurasının təşkilatçılığı və dəstəyi ilə ərsəyə gələn, Lalə və İsgəndər Sərdarlıların tətbiqi sənət nümunələrindən ibarət fərdi sərgisi, əslində, üç nəfərlik bir ailənin (Lalə+Toğrul+İsgəndər - ana, oğul və ata) təqdim etdikləri müəllif işləridir. 1966-cı ildə Goranboy rayonunda dünyaya göz açan İsgəndər Sərdarlının uşaqlıq illərindən arzusu yazıb-yaratmaq olsa da, tale onu bu sənətə sonradan gətirib. Goranboy şəhərindəki 2 nömrəli orta məktəbi əla qiymətlərlə bitirdikdən sonra ozamankı Neft və Kimya İnstitutuna (indi Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) qəbul olub və ilk baxışdan qeyri-adi görünən ixtisas seçib: "mühəndis-texnik, analitik-jurnalist". Tələbəlik illərində sevib-seçdiyi Lalə xanımla institutun sahə qəzetində bir-birindən maraqlı yazılarla çıxış ediblər. Lalə xanım Baki şəhərində 175 saylı orta məktəbi əla qiymətlərlə bitirmiş, o da sonradan məhz bu ixtisasın sahibi olmuşdur.

## "Əbədiyyətə qovuşma"sa da...

Sonralar İsgəndər Sərdarlı Azərbaycan SSR Dövlət Təchizat Komitəsində aparıcı mütəxəssis kimi çalışmış, Lalə xanım isə ali təhsilini başa vurduqdan sonra Neft-Kimya İnstitutunun Fizika kafedrasının elmi işçisi kimi çalışmışdır. Həmin dövrdə Lalə xanım dissertasiya üzərində işləyir, lakin 1990-cı illərin əvvəllərində ölkədə yaranmış vəziyyət onların hər ikisinin bu sahələrdəki fəaliyyətlərini yarımçıq qoyur. Mətbuat sahəsində fəaliyyətlərini davam etdirirlər. Lalə xanımın rəhbərlik etdiyi "Birlik" adlı sahə qəzeti dəfələrlə ölkənin ayrı-ayrı jurnalist təşkilatlarının mükafatlarına layiq görülür. Oğlu Toğrul Sərdarlı o illərdə Bakı Dövlət Universitetinin Tətbiqi-riyaziyyat fakultəsini bitirir. Lakin hələ 1-ci kursda oxuyarkən "Əbədiyyətə qovuşma" adlı ilk romanını yazır. Əsərin Riqa şəhərində təqdimatı keçirilir. Ailənin 2010-cu ilə təsadüf edən bu sevincli günləri həm də ona görə əlamətdar idi ki, Toğrul o zaman respublikanın xalq artisti Samir Cəfərovdan və keçmiş SSRİ-nin məşhur bəstəkarı, Latviyanın canlı əfsanəsi Raymond Paulsdan vokal dərsləri və bu sənətdə öz xeyir-duasını alır. Təbii ki, gənc Toğrul üçün böyük perspektivlər açılır. Lakin qəfildən bu xoşbəxtliyin üzərinə qara bir kölgə çökür: İsgəndər Sərdarlı şəkərli diabetin fəsadlarından komaya düşür. Komadan sonrakı həyat isə öz gərginlik dolu diktələrini edir. Bununla da ailənin jurnalistika aləmi ilə əlaqəsi birdəfəlik kəsilir. Həkimlər ona yazıpozu ilə məğul olmağa izacə vermir. İsgəndəri yenidən həyata qaytarmağa çalışan Lalə xanım eyni zamanda onun ev həkiminə çevrilir.

Heç zaman onu tək qoymayan Lalə xanım hələ uşaqlıqdan maraq göstərdiyi tətbiqi sənət nümunələrini elə onun yanındaca hazırlamağa başlayır. İlk əl işləri "Peyp art" üsulu ilə hazırlanan müxtəlif çeşidli vazalar, pannolar olur. "Papye maşe" üsulu ilə ərsəyə gətirdiyi qablar, nimçələr, Venesiya maskaları və s. diqqət çəkir. Təbii ki, bu yaradıcılıq atmosferini seyr edən İsgəndər Sərdarlıda ümidverici işartılar yaranır. Növbəti mərhələdə Lalə xanım hazırladığı bir boyunbağı üçün həyat yoldaşından xüsusi qab hazırlamasını xahiş edir. O zamanlar karton məmulatından hazırlanan bu qab İsgəndər Sərdarlını yeni həyata qaytarır. Bu minvalla o, canı-dildən bütün çalışmalarını bu sahəyə yönəldir: karton qutular mücrülərə, onlar da sandıqlara çevrilir. Az keçmir ki, bütün karyerasından, perspektivlərindən atasını tək qoymamaq naminə əl qötürən Toğrul da ona dəstək olur, yaradıcılıq işlərinə qoşulur. Bu ərəfədə Lalə xanımın hazırladığı işlər sosial şəbəkələr vasitəsilə özünə böyük şan-şöhrət qazandıra bilir. ABŞ, Kanada, Yaponiya, İtaliya, İspaniya, Fransa, Macarıstan, Türkiyə, Ukrayna, Rusiya kimi ölkələrdən alıcılar tapır.

## Bu həm də yaşamağı öyrənməkdir...

Əlbəttə, elm-texnikadan incəsənətə keçid o qədər də asan olmur. Toğrul Sərdarlı bildirdi ki, əslində, art terapiyanın faydaları danılmazdır: "Zaman-zaman bu zərurətdən geniş tətbiq edilməkdədir. Atam bu işləri hazırlayarkən yaradıcılıq baxımından qarşısına bir hədəf qoymurdu. Və yaradıcılığında heç bir mövcud məktəbə də üz tutmayıb. Üzərində işlədiyi əsərlər də çox gözəl alınırdı. İşi başa çatdıranda uşaq kimi sevinirdi".

İsgəndər Sərdarlının da ürəyi doludur: "Mən bu işin əlifbasını ömür-gün yoldaşımdan öyrəndim. Bu, sadəcə, nəyisə hazırlamağı, yaratmağı öyrənmək deyil. Bu həm də yaşamağı öyrənməkdir".

Sənət nümunələrinin unikallığını təsdiqləyən səbəblər çoxdur. Məsələn, sandıqlar müxtəlif xalqların və dövrlərin yadigarlarıdır sanki. Bunları düzəldib təqdim etməklə sənətkarlar tarixlə incəsənətin sintezini yaradıblar.

Geniş xalq auditoriyasına yenicə təqdim edilən sənət nümunələrinin özəlliklərindən biri onların adlarındadır: "Mənim ailəm", "Bahar təranələri", "Novruz ovqatı", "Atlantida", "Sevgi atəşi", "Lakşmi bəxşişi", "Gözəllik ilahəsi" və s. Şərqin təbabət alimi İbn-Sinaya həsr edilən sandığın özəlliyi müəllifin bu əl işi vasitəsilə gələcəyə ünvanladığı mesajdadır.

İsgəndər Sərdarlının iki əsəri Macarıstanın milli muzeyində (Avstro-Macarıstan krallığının kraliçası Yelizaveta Bavarskayaya həsr edilmiış "Koroleva Sisi" adlı mücrü) və Kipr muzeyində ("Qızılgül ovqatı") saxlanır. Bu əntiq əşyaların ilk vaxtlar satışı nəzərdə tutulmayıb. Müəllif olubkeçənləri acılı-şirinli xatirə kimi söyləyir: "Bu əsərləri heç vaxt satmaq fikrimiz olmayıb. Onları nəslimizə, muzeylərimizə ərməğan etmək üçün yaratmışdıq".

## 50 min avroya dəyən əsər yaratmaq məharəti və...

Lakin hazırda ailənin başqa yerdən gəliri olmadığı və İsgəndər Sərdarlının müalicəsinin davam etdirilməsi üçün hər biri yeganə nüsxə olsalar da satışı nəzərdə tutulub. Burada müəllifin 50 manatdan 5000 manatadək dəyişən qiymətli əl işləri var. Əslində, ekspertlər bu işlərə qat-qat yüksək dəyər və qiymət veriblər. LATİS-in üçüncü üzvü Toğrul Sərdarlı atasının fikirlərini davam etdirir: "Bu sandıqların birinə ("Mənim ailəm") Avropada, İspaniyanın Malaqa şəhərindəki qalereyalardan birində ekspertlər 50 000 avro civarında qiymət müəyyənləşdirdilər və bildirdilər ki, bu işləri Fransada daha baha satmaq olar. Lakin o zamanlar bu işləri satmaq heç ağlımıza da gəlməzdi".

Lalə Sərdarlının ərsəyə gətirdiyi əfsanəvi "Səməndər quşları"ndakı (barelyef işi) sirlər də az deyil. Bu işə Türkiyənin tanınmış rəssamı İsmət Çabuk çox yüksək dəyər verib. Bildirib ki, böyük məmnuniyyətlə Lalə xanımla birgə bu səpkidə daha bir layihə reallaşdırmağa hazırdır.

Sərgi zamanı digər ölkələrdən gəlmiş insanlar da "LATİS"-in işlərinə böyük maraq göstərdilər. Əşyaların arasında sənətkarların ilk əl işləri də diqqət çəkirdi ki, adı "İlkim"dir. "Mənim Turanım", "İsgəndəriyyə bəxşişi", "Şərq gözəli", "Niyyət", "Dərya", "Yaşıl sirdaş" adlı əsərlər milli koloritləri və orijinallıqları ilə də seçilirdi.

## "Sultanın bəxşişi"nin qazandırdığı böyük uğur

Lalə Sərdarlı bu işlərlə bağlı bir qədər tarixə ekskurs etdi: "XVI-XIX əsrlərdə hazırlanmış bədii metal nümunələri 6 texniki üsulda bəzədilirdi: döymə, basma, qara savad, şəbəkə, xətəmkarlıq, minaçılıq. Orta əsr mənbələrində zərgərlik sənətinin inkişafı haqqında məlumatlara rast gəlinir. Həmin mənbələrdə zərgərliyin daha çox inkişaf etdiyi Gəncə, Şamaxı, Bakı, Beyləqan şəhərlərinin adları göstərilir. On yeddi-on səkkizinci yüzilliklərdə isə Şamaxı ustalarının bəzək əşyaları böyük şöhrət qazanıb. Mən isə həm də qədim yapon məktəbindən bəhrələnərək yeni bir sintez qurub öz xəttimi təsdiqləməyə çalışıram. Bizdə yuxarıda sadaladığım zərgərlik məktəbi, yaponlarda isə qədim Şibori var. Hələ üç il əvvəl Sankt-Peterburqda keçirilən Şibori məhsulları ilə hazırladığım bəzək əşyaları beynəlxalq müsabiqədə üç nominasiya üzrə mənə birincilik qazandırdı. "Sultanın bəxşişi" adlı işim mənə böyük uğur gətirdi. İndiyədək zərgərlik məktəbindən bəhrələnsəm də, istifadə etdiyim məmulatlar qızıl və brilliantlardan ibarət deyil, adi metal və daşlardandır. Lakin şibori ilə təbii daşların, eləcə də qızıl və brilliantın sintezi daha məqsədəuyğun olardı. Bu işdə bizə kimlərsə yardımçı olsa, dünyada yeni bir nümünəyə imza ata bilərik".

Azərbaycan xalqı özünün milli-mənəvi sərvətlərindən sayılan sənətkarlıq nümunələrini daim qoruyub saxlayıb. Xalqımızın minillik tarixində zərgərlik kimi unudulmayan, sonrakı dövrlərdə də öz əhəmiyyətini saxlayan sənətlər az deyil. Onları qorumaq geniş ictimaiyyətin də vətəndaşlıq borcudur.

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

# Azərbaycan idmançıları Paracüdo üzrə Beynəlxalq Qran-pri turnirində 11 medal qazanıblar

Bakıda ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunan Paracüdo üzrə Beynəlxalq Qran-pri yarışlarına mayın 14-də yekun vurulub. AZƏRTAC xəbər verir ki, turnirin sonuncu günündə Azərbaycan millisi 1 gümüş və 1 bürünc medal qazanıb.

Kişilərin yarışında Rövşən Səfərov (90 kq) moldovalı Oleq Kretula qalib gələrək dörddəbir finala yüksəlib. Paracüdoçumuzun növbəti rəqibi Türkiyə idmançısı İbrahim Bölükbaşı olub. Rəqibini üç saniyə ərzində ipponla məğlub edən R.Səfərov yarımfinala vəsiqə qazanıb. Növbəti görüşdə dünya çempionu, “Rio 2016”nın gümüş medalçısı ukraynalı Aleksandr Nazarenkonu da üç saniyə ərzində ipponla məğlub edən idmançımız adını finala yazdırıb. R.Səfərov həlledici görüşdə İran idmançısı Vahid Nouriyə uduzaraq gümüş medalla kifayətlənməli olub. Bürünc medallara dünya çempionatının gümüş medalçısı rusiyalı Vladimir Fedin və A.Nazarenko layiq görülüblər.

Turnirdə 100 kiloqram çəki dərəcəsində yarışda Böyük Britaniya idmançısı Kristofer Skelley qızıl medala sahib olub. Rusiyalı Anatoli Şevçenko yarışı ikinci, ABŞ paracüdoçusu Benjamin Qudriç və almaniyalı Oliver Apmann üçüncü pillədə başa vurublar.

Yüz kiloqramdan yuxarı çəki dərəcəsində Özbəkistan idmançısı Şirin Şaripov fəxri kürsünün birinci, iranlı Mohammedreza Xeirollahzade ikinci, gürcüstanlı Revaz Çikoidze və yaponiyalı Kento Masaki isə üçüncü pilləsinə qalxıblar.

Qadınların yarışında idmançımız Xanım Hüseynova (63 kq) bürünc medal uğrunda görüşdə türkiyəli Duyğu Cete Artara qalib gələrək turniri üçüncü pillədə başa vurub. Bu çəki dərəcəsində finalda özbəkistanlı Nafisa Şərifboeva Rusiya təmsilçisi Olqa Poznişevaya qalib gələrək çempion olub. Digər bürünc medala isə dünya çempionatının bürünc mükafatçısı, çinli Yue Vanq layiq görülüb.

Qran-pridə 70 kiloqram çəki dərəcəsində qadınların mübarizəsində Meksika idmançısı Lenia Fabiola Ruvalkaba Alvarez birinci, braziliyalı Alana Martins ikinci, özbəkistanlı Vəsilə Aliboeva və dünya çempionatının bürünc mükafatçısı, rusiyalı Olqa Zabrodskaya üçüncü olublar.

İtaliyalı Karolina Kosta 70 kiloqramdan yuxarı çəki dərəcəsində fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Finalda məğlub olan Çin paracüdoçusu Honqyu Vanq gümüş medalla kifayətlənib. Braziliya təmsilçiləri Meq Emmeriç və Rebeka Silva bürünc medal qazanıblar.

Xatırladaq ki, turnirin birinci günündə paracüdoçularımız millimizin aktivinə 3 qızıl, 3 gümüş və 3 bürünc medal yazdırıblar. Beləliklə, turnirdə 3 qızıl, 4 gümüş və 4 bürünc medal qazanan Azərbaycan millisi komanda hesabında ikinci yeri tutub.

Qran-prinin qalibi adını aktivində 4 qızıl və 4 bürünc medal olan Özbəkistan seçməsi qazanıb. Ukrayna 1 qızıl, 1 gümüş və 2 bürünc medalla üçüncü olub.

Heydər Əliyev adına İdman sarayında keçirilən turnirdə 35 ölkədən 214 cüdoçu birincilik uğrunda mübarizə aparıb. Turnirdə ölkəmizi 21 cüdoçu təmsil edib. Kişilərin yarışında 11, qadınların mübarizəsində isə 10 idmançımız tatami üzərinə çıxıb. Qran-pri “Tokio 2020” XVI Yay Paralimpiya Oyunlarına lisenziya xalları qazandırıb.

Qeyd edək ki, Azərbaycan Dövlət İnformasiya Agentliyi - AZƏRTAC Paracüdo üzrə Qran-prinin media tərəfdaşıdır.

# Latın Amerikasını təmsil edən diplomatlar “Təmiz Şəhər” ASC-nin fəaliyyəti ilə tanış olublar

Perunun Azərbaycandakı səfiri xanım Maria Milaqros Kastanyon Seoane və Çilinin Azərbaycandakı səfirliyinin müvəqqəti işlər vəkili Qabriel Hara Maldonado Balaxanı Sənaye Parkı və Bakı Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda olublar.



“Təmiz Şəhər” ASC-nin İdarə Heyətinin sədri Etibar Abbasov qurumun fəaliyyəti, tullantıların idarəolunması sahəsində və “yaşıl iqtisadiyyat”ın inkişafı istiqamətində görülən işlər, Balaxanı Sənaye Parkında sahibkarlar üçün yaradılmış əlverişli şərait barədə qonaqlara məlumat verib. Bildirilib ki, Balaxanı Sənaye Parkında işlənmiş mühərrik yağlarının, tullantı plastik butulkaların, kağız-karton məmulatlarının, plastik materialların və süngərlərin təkrar emalı sahələri üzrə 7 rezident fəaliyyət göstərir. Daha 11 növ istehsal sahəsi üzrə qeydiyyata alınmış 9 rezident yaxın zamanda fəaliyyətə başlayacaq.

Bərk Məişət Tullantılarının Yandırılması Zavodu ilə tanışlıq zamanı qonaqlara ətraf mühitə mənfi təsirlərin azaldılmasında müəssisənin rolu barədə məlumat verilib. Qeyd edilib ki, 4-cü nəsil texnologiya ilə inşa edilən zavod Şərqi Avropada bu tipli ən müasir müəssisələrdəndir. Müəssisə il ərzində 500 min ton bərk məişət və 10 min ton tibbi tullantı yandırmaq, 231,5 milyon kilovat-saat elektrik enerjisi hasil etmək gücünə malikdir. İl ərzində zavodda əldə edilən enerji ilə 200 min nəfər əhalisi olan şəhəri elektrik enerjisi ilə tam təmin etmək mümkündür.

Diplomatlar “yaşıl iqtisadiyyat”ın inkişafı istiqamətində görülən işlərdən məmnunluğunu bildirib, “Təmiz Şəhər” ASC-nin bu sahədə işini yüksək qiymətləndiriblər.

***“Təmiz Şəhər” ASC-nin mətbuat xidməti***

# “Azercell”in “Mobil Diş Klinikası” təmənnasız tibbi müayinələrin təşkilini davam etdirir

Korporativ Sosial Məsuliyyət Strategiyasında müasir texnologiyaların köməyilə insan həyatının keyfiyyətinin artırılmasını hədəfləyən “Azercell” fəaliyyəti boyunca bu istiqamətdə bir sıra sosial layihələrin həyata keçirilməsini dəstəkləyib.



“Azercell”in təşəbbüsü ilə yaradılan “Mobil Diş Klinikası” bu layihələrdəndir. Həm Bakı, həm də regionlardakı uşaq evlərinə səfər edən klinika növbəti diş müayinələrini Bilgəh qəsəbəsi 11 saylı inteqrasiya təlimli internat məktəbində təşkil edib. Bir ay boyunca davam edən səfərdə 71 uşaq müayinə və lazımi müalicə ilə təmin edilib.

Azərbaycandakı əksər uşaq evlərində stomatoloji kabinetin olmamasını nəzərə alan “Azercell Telekom” MMC “Mobil Diş Klinikası”nı ən müasir tibbi avadanlıqla təchiz edib. Vurğulamaq istərdik ki, klinikanın əsas hədəfi internat məktəblərinin şagirdlərini, valideyn himayəsindən məhrum uşaqları, qaçqın və məcburi köçkün düşərgələrində məskunlaşmış körpələri müayinə və müalicə etməkdir.

Qeyd edək ki, bütün müayinə və müalicə tədbirləri “Azercell”in dəstəyi ilə “Xəzər Qayğıkeşlik Layihəsi” İctimai Birliyi tərəfindən həyata keçirilir.

***“Azərbaycan”***

## Beynəlxalq aləm

### ABŞ-da məscid yandırıldı



ABŞ-ın Konnektikut ştatının Nyu-Heyven şəhərində Diyanet məscidinin yandırılması nəticəsində binaya böyük maddi ziyan dəymişdir. Bu barədə “Anadolu” agentliyi xəbər verir.

Türkiyənin Nyu Yorkdakı Baş Konsulluğundan bildirmişlər ki, cinayətkarların axtarışı davam edir. Onların tutulması üçün pul mükafatı təyin olunmuşdur.

Məlumata görə, yanğın məscidin girişində başlamışdır. Lakin yanğınsöndürənlər gələnədək alov üçüncü mərtəbəyə qalxmışdır. Tələfat və yaralı yoxdur.

### Hindistanda “Fani” qasırğasının qurbanlarının sayı 64 nəfərə çatdı



Hindistanın şərq sahilini vurmuş “Fani” qasırğasının qurbanlarının sayı 64 nəfərə çatmışdır. Bu barədə yerli KİV xəbər verir.

Məlumata görə, son 43 il ərzində ilk dəfə Benqal körfəzini vurmuş yay qasırğası nəticəsində 241 nəfər yaralanmışdır. Xatırladaq ki, cari ayın əvvəllərində Orissa ştatında tüğyan etmiş “Fani” evlərə, yollara, elektrik xətlərinə və kommunikasiyalara böyük ziyan vurmuşdur. Küləyin sürəti saatda 200 kilometr idi.

Qasırğa başlamazdan əvvəl hakimiyyət orqanları təhlükəli rayonlardan 1 milyon nəfərdən çox adamı köçürmüşdür.

### ABŞ Yaxın Şərqə 120 min əsgər göndərməyə hazırlaşır

ABŞ Müdafiə Nazirliyinin Prezident Donald Trampa təqdim etdiyi İrana qarşı hərbi plan 120 minədək amerikalı hərbçinin Yaxın Şərqə göndərilməsini nəzərdə tutur. Bu barədə Pentaqondakı mənbələrə istinadən “The Nyu York Times” qəzeti xəbər verir.

Bu addım, İran regiondakı ABŞ qüvvələrinə hücum etsə, yaxud nüvə silahı üzərində işini sürətləndirsə, həyata keçiriləcək. Məlumata görə, müdafiə nazirinin səlahiyyətlərini icra edən Patrik Şanahan planı şəxsən Prezidentə təqdim etmişdir. Bu günlərdə ABŞ Prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Con Bolton bildirmişdi ki, Vaşinqton İran sahillərinə “Avraam Linkoln” təyyarədaşıyan gəmisini və bir neçə bombardmançı təyyarə göndərəcək. Onun dediyinə görə, bu, İranın münasibətləri gərginləşdirməyə yönəlmiş hərəkətlərinə cavab olacaq.

### Somali paytaxtında partlayış

Somalinin paytaxtı Moqadişoda minalanmış avtomobil yerli hökumətin binasına çırpılmışdır. Çoxsaylı tələfat istisna edilmir. Bu barədə yerli polisə istinadən “Garowe” radiostansiyası xəbər verir. Qeyd olunur ki, partlayış nəticəsində çoxlu adam həlak olmuş və yaralanmışdır. Lakin qurbanlar və zərərçəkənlər barədə hələ ki dəqiq məlumat yoxdur.

Baş vermiş hadisəyə görə heç bir terrorçu təşkilat məsuliyyəti üzərinə götürməmişdir.

### Albaniyada yeni hökumətin əleyhinə etiraz aksiyası keçirilib

Albaniyanın paytaxtı Tiranada birləşmiş müxalifət yeni etiraz aksiyası keçirmişdir. MİA informasiya agentliyinin xəbərinə görə, əlverişsiz hava şəraitinə baxmayaraq, müxalifətin minlərlə tərəfdarı “Rama, get!” şüarları ilə küçələrə çıxmışdır.

Demokrat Partiyasının (DP) lideri Lülzim Başa etiraz nümayişinin iştirakçılarına müraciətində demişdir: “Yağış altında üç saatdan çox vaxt keçirdikdən sonra əmin olduq ki, məqsədimizin reallaşmasında - azad və ədalətli seçkilərin keçirilməsində dünyada bizə maneçilik törədə bilən qüvvə yoxdur. Bizi şərlə danışıqlar aparmağa məcbur edə biləcək qüvvə yoxdur”.

Etiraz aksiyası hökumət binasının qarşısında başlamışdır. Bundan sonra mitinqçilər parlamentə və Daxili İşlər Nazirliyinə doğru hərəkət etmişlər. Vəziyyət polis idarəsinin qarşısında gərginləşmişdir. Ötən şənbə günü keçirilmiş etirazlar zamanı tutulmuş 50 nəfərin azadlığa buraxılmasını tələb edən nümayişçilər polisə “Molotov kokteylləri”, daş və tüstü bombaları atmışlar. Toqquşmalar nəticəsində təhlükəsizlik orqanlarının bir əməkdaşı yaralanmış, polis idarəsinin binasında bir neçə şüşə sındırılmışdır.

DP-nin lideri Başanın rəhbərliyi ilə müxalifətçilər Baş nazir Edi Ramanın başçılıq etdiyi hökumətin istefasını tələb edirlər. Onlar iyunun axırlarında keçirilməsi planlaşdırılan bələdiyyə seçkilərini boykot etmək niyyətindədirlər.


*Təkrar*

## Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi “Regionların inkişafına dəstək Qrant Proqramı” çərçivəsində “Regionlarda rəqabətqabiliyyətli sahələrin inkişafına dəstək (üzümçülük, iri taxılçılıq və toxumçuluq təsərrüfatları)” layihəsi üzrə

### *açıq tender elan edir*

İşlərin yerinə yetirilmə müddəti 12 aydır.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: qiymət, keyfiyyət, mühafizə imkanları, istifadə və xidmət rahatlığı, analoji layihələr üzrə təcrübə, o cümlədən digər qurumlarda tətbiqi, texniki imkanlar, kadr potensialı.

Tenderdə iştirak etmək istəyənlər 1500 (bir min beş yüz) manat iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu aşağıdakı ünvandan ala bilərlər:

AZ 1000, Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi, 84, Hökumət Evi.

Əlaqələndirici şəxs: Günel Quliyeva, tel.: 493-88-67 (daxili: 23-67)

**Təşkilatın adı:** **İqtisadiyyat Nazirliyi**
**VÖEN:** **1700012751**
**Hesab:** **AZ82CTRE00000000000002098501**
**Bank rekvizitləri:** **Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod:** **210005**
**M/h:** **AZ41NABZ01360100000000003944**
**VÖEN:** **1401555071**
**SWIFT:** **CTREAZ22**
**Büdcə səviyyəsinin kodu: 7**
**İqtisadi təsnifat:** **142340**

Ünvan: AZ 1000, Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi, 84, Hökumət Evi
Telefon: 493-88-67; faks: 498-85-19

İştirak haqqı heç bir halda geri qaytarılmır. İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *iddiaçının tam adını, hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış və s.) notarial qaydada təsdiq edilmiş surətləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilər, sosial və digər icbari ödənişlərə dair yerinə yetirilmə vaxtı keçmiş öhdəliklərin olmaması haqqında vergi və sosial müdafiə orqanlarından arayışlar;*
- *iddiaçının son bir il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir il ərzində maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
- *tender təklifi (zərflərin açıldığı gündən sonra azı 30 bank günü müddətində qüvvədə qalır);*
- *tender təklifi qiymətinin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *müqaviləni yerinə yetirmək üçün tender iştirakçılarının lazımi texniki imkanları haqqında arayış;*
- *şərtlər toplusunda nəzərdə tutulan digər tələblər.*

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 3 iyun 2019-cu il saat 17:00-dək, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 14 iyun 2019-cu il saat 17:00-dək İqtisadiyyat Nazirliyinə (ünvan: Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi, 84, Hökumət Evi) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklif zərfləri 18 iyun 2019-cu il saat 15:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

***Tender komissiyası***

*Təkrar*

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti dəftərxana mallarının satın alınması ilə əlaqədar

### *açıq tender elan edir*

**Tender 1 LOT üzrə keçirilir:**

- **LOT 1 - Dəftərxana mallarının satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu AZ1110, Bakı şəhəri, Binəqədi rayonu, 6-cı mkr., Mirmahmud Kazımovski küçəsi, 134 (telefon: (012) 568-46-25) ünvanından ala bilərlər.

İştirak haqqı: **300 manat**
Satın alan təşkilat: **Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti**
**VÖEN: 1003853391**
**H/h: AZ41CTRE00000000000002947601**
**Dövlət Xəzinədarlığı Agentliyi**
**VÖEN: 1401555071**
**M/h: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**
Büdcə gəlirlərinin təsnifat kodu **- 142340**
Büdcə səviyyəsinin kodu **- 7**
İştirak haqqı heç bir halda geri qaytarılmır.
İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *Tender təklifi dəyərinin **1** faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *Digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **7 iyun 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **18 iyun 2019-cu il saat 18:00-a** qədər **AZ1110, Bakı şəhəri, Binəqədi rayonu, 6-cı mkr., Mirmahmud Kazımovski küçəsi, 134** ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **19 iyun 2019-cu il saat 15:00**-da **Bakı şəhəri, Binəqədi rayonu, 6-cı mkr., Mirmahmud Kazımovski küçəsi, 134** ünvanında açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilər.

***Tender komissiyası***

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti 225411(inventarın alınması) xərc maddəsi üzrə malların alınması ilə əlaqədar olaraq kotirovka sorğusu elan edir

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 20.05.2019-cu il tarixə qədər Dövlət Əmək Müfəttişliyi Xidmətinin aşağıdakı ünvanına təqdim olunmalıdır.

**Əlaqələndirici şəxs: Anar Məmmədov.**
**Ünvan: Bakı şəhəri, Yasamal rayonu, Salatın Əsgərova küçəsi-85.**
**Telefon: (012) 594-17-26.**

***Tender komissiyası***

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti 311220 (digər maşın və avadanlıqların alınması) xərc maddəsi üzrə malların alınması ilə əlaqədar olaraq kotirovka sorğusu elan edir

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 20.05.2019-cu il tarixə qədər Dövlət Əmək Müfəttişliyi Xidmətinin aşağıdakı ünvanına təqdim olunmalıdır.

**Əlaqələndirici şəxs: Anar Məmmədov.**
**Ünvan: Bakı şəhəri, Yasamal rayonu, Salatın Əsgərova küçəsi-85.**
**Telefon: (012) 594-17-26.**

***Tender komissiyası***

*Təkrar*

# “Azərsu” Açıq Səhmdar Cəmiyyəti
## *Tenderdə iştirak üçün dəvət*

**Maliyyələşdirmə №: AZ0040**
**NCB- IFB №: F1/CW /01/2019, 3 rayonda (Daşkəsən, Tərtər və Qazax) ofis binalarının tikintisi**
Azərbaycan Respublikası İslam İnkişaf Bankından (İİB) “Azərbaycanın 6 (altı) rayonunda Milli Su Təchizatı və Kanalizasiya Proqramı” layihəsinin həyata keçirilməsi ilə əlaqədar xərclərin qarşılanması məqsədilə maliyyə vəsaiti almışdır. Bu vəsaitin bir hissəsinin 3 rayonda (Daşkəsən, Tərtər və Qazax) “Azərsu” ASC-nin ofis binalarının tikintisinə yönəldilməsi nəzərdə tutulur.
“Azərsu” ASC iştirak hüququ olan iddiaçılardan möhürlənmiş təklifləri 3 rayonda (Daşkəsən, Tərtər və Qazax) “Azərsu” ASC-nin ofis binalarının tikintisi üzrə açıq tenderdə iştirak etməyə dəvət edir. Sözügedən işlər aşağıdakılardan və əlaqədar işlərdən ibarətdir:
**Ofis binalarının tikintisi**
a) Daşkəsəndə ofis binasının tikintisi;
b) Tərtərdə ofis binasının tikintisi;
c) Qazaxda ofis binasının tikintisi.
Qalibin seçilməsi İİB-nin satınalma təlimatlarına uyğun (may 2009) (www.isdb.org veb-səhifəsindən əldə etmək mümkündür) müəyyən edilmiş qaydada İİB-nin Üzv Ölkələrindən olan bütün iddiaçılar üçün açıq olan ixisas uyğunluğunun sonradan müəyyənləşdirilməsi proseduru ilə həyata keçiriləcək.
Tenderdə iştirak etmək hüququ olan iddiaçılar əlavə məlumat əldə etmək və tender sənədləri ilə tanış olmaq üçün Azərbaycan Respublikası, Bakı şəhəri, “Azərsu” ASC-nin Satınalmaların təşkili və müqavilələrin idarə olunması şöbəsinin rəisi İlqar Tağıyevə müraciət edə bilərlər. Ünvan: “Azərsu” ASC, Moskva prospekti, 67, 3-cü mərtəbə, telefon: +99412 431-47-67 (10-33), elektron poçt ünvanı: i.tagiyev@azersu.az və intizam.novruzov@azersu.az
İştirakçılar tender sənədlərinin tam dəstini yuxarıda qeyd olunan ünvana yazılı müraciət təqdim etdikdən və 500 (beş yüz) AZN və ya 300 (üç yüz) ABŞ dolları məbləğində geri ödənilməyən iştirak haqqı ödədikdən sonra əldə edə bilərlər.

| | |
|---|---|
| **Benefisiarın adı:** | **“AZERSU” ASC** |
| **VÖEN:** | **9900001751** |
| **Benefisiarın bankı:** | **Azərbaycan Respublikasının Kapital Bankı, 1 saylı Nəsimi filialı** |
| **VÖEN:** | **9900003611** |
| **Yerli valyuta hesabı №:** | **AZ65AIIB33070019441100216111** |
| **Xarici valyuta hesabı №:** | **AZ55AIIB33170018401100216111** |
| **Kodu:** | **200112** |
| **SWIFT kodu:** | **AIIBAZ2X** |

Tender təklifləri 30 000,00 (otuz min) AZN həcmində tender təklifinin təminatı ilə birgə 31.05.2019-cu il Bakı vaxtı ilə saat 16:00-a qədər yuxarıda qeyd olunan ünvana təqdim olunmalıdır.
Tender təkliflərinin açılışında iştirak etmək arzusunda olan tender iştirakçılarının nümayəndələrinin iştirakı ilə tender təklifləri 31.05.2019-cu il Bakı vaxtı ilə saat 16:00-da Azərbaycan Respublikası, Bakı şəhəri, Moskva prospekti, 67 ünvanında yerləşən “Azərsu” ASC-nin binasında açılacaqdır.

***Tender komissiyası***

*Təkrar*

# “Azərsu” Açıq Səhmdar Cəmiyyəti
## *Tenderdə iştiraka dəvət*

**Ölkənin adı:** Azərbaycan Respublikası
**Layihə:** Azərbaycanın 6 rayonunda Milli Su Təchizatı və Kanalizasiya Layihəsi
**Kredit №:** AZ0040
**Müqavilənin adı:** 4 şəhər (Gədəbəy, Tərtər, Daşkəsən və Qazax) üzrə texniki xidmət avadanlığı və maşın-mexanizmlərin satın alınması.
**İstinad nömrəsi (Satınalma Planına əsasən):** NCB_ F2/S/02/2019
Azərbaycan Respublikası “Azərbaycanın 6 (altı) rayonunda Milli Su Təchizatı və Kanalizasiya Layihəsi” ilə əlaqədar xərclərin ödənilməsi üçün İslam İnkişaf Bankından (İİB) maliyyə vəsaiti əldə etmişdir və həmin vəsaitin bir hissəsini “4 şəhər (Gədəbəy, Tərtər, Daşkəsən və Qazax) üçün texniki xidmət avadanlığı və maşın-mexanizmlərin satın alınması” üzrə müqavilə ilə əlaqədar ödənişlərə yönəltmək niyyətindədir.
“Azərsu” Açıq Səhmdar Cəmiyyəti iştirak hüququ olan iddiaçılardan möhürlənmiş təklifləri ilə “4 şəhər (Gədəbəy, Tərtər, Daşkəsən və Qazax) üçün texniki xidmət avadanlığı və maşın-mexanizmlərin satın alınması” üzrə tenderdə iştirak etməyə dəvət edir.
Tender İİB Bankının *mal və işlərin satın alınması Qaydalarında* (“Satınalma Qaydaları”) müəyyən edilmiş Milli Rəqabətli Tender prosedurlarına uyğun olaraq aparılacaqdır. Tenderdə Satınalma Qaydalarında müəyyən edilmiş iştirak hüququ olan bütün iddiaçılar iştirak edə bilərlər. Bundan əlavə, bankın maraqlarının toqquşmasına dair siyasətini müəyyən edən 1.6-cı və 1.7-ci bəndlərə istinad etməyiniz xahiş olunur.
Tenderdə iştirak etmək hüququ olan iddiaçılar əlavə məlumat əldə etmək və tender sənədləri ilə tanış olmaq üçün Azərbaycan Respublikası, Bakı şəhəri, “Azərsu” ASC-nin Satınalmaların təşkili və müqavilələrin idarə olunması şöbəsinin rəisi İlqar Tağıyevə müraciət edə bilərlər. Ünvan: “Azərsu” ASC, Moskva prospekti, 67, 3-cü mərtəbə, telefon: + 994 12 431-47-67 (10-33), elektron poçt ünvanı: i.tagiyev@azersu.az və intizam.novruzov@azersu.az
Tenderdə iştirak etmək hüququ olan iddiaçılar tender sənədlərinin ingilis və Azərbaycan dillərində tam dəstini aşağıda qeyd olunan ünvana yazılı müraciət təqdim etdikdən və 500 (beş yüz) AZN və ya 300 (üç yüz) USD məbləğində geri ödənilməyən iştirak haqqı ödədikdən sonra ala bilərlər.
Ödəniş aşağıdakı bank hesabına köçürülməlidir:

| | |
|---|---|
| **Benefisiarın adı:** | **“AZƏRSU” ASC** |
| **VÖEN:** | **9900001751** |

**Benefisiarın bankı: Azərbaycan Respublikasının Kapital Bankı, 1 saylı Nəsimi filialı**

| | |
|---|---|
| **VÖEN:** | **9900003611** |
| **Yerli valyuta hesabı №:** | **AZ65AIIB33070019441100216111** |
| **Xarici valyuta hesabı №:** | **AZ55AIIB33170018401100216111** |
| **Kodu:** | **200112** |
| **SWIFT kodu:** | **AIIBAZ2X** |

Sözügedən sənədlər poçtla və ya müvafiq qurumun ofisindən əldə oluna bilər.
Tender təklifləri qeyd olunan vaxtdan gec olmayaraq aşağıdakı ünvana təqdim olunmalıdır:
**31.05.2019-cu il Bakı vaxtı ilə saat 16:00**
**“Azərsu” ASC ofisi, Satınalmaların təşkili və müqavilələrin idarə olunması şöbəsi.**
**Ünvan: Azərbaycan Respublikası, Bakı şəhəri, Moskva prospekti, 67, “Azərsu” ASC, 3-cü mərtəbə**
**Telefon: + 994 12 431-47-67 (10-33) və (30-19)**
Tender təkliflərinin elektron formatda təqdim olunmasına icazə verilmir. Gec təqdim olunmuş tender təklifləri qəbul olunmayacaqdır. Tender təklifləri iddiaçıların səlahiyyətli nümayəndələrinin iştirakı ilə aşağıda qeyd olunan vaxtda və ünvanda açılacaqdır:
**31.05.2019-cu il Bakı vaxtı ilə saat 16:00**
**“Azərsu” ASC ofisi, Satınalmaların təşkili və müqavilələrin idarə olunması şöbəsi.**
**Ünvan: Azərbaycan Respublikası, Bakı şəhəri, Moskva prospekti, 67, “Azərsu” ASC, 3-cü mərtəbə**
**Telefon: + 994 12 431-47-67 (10-33) və (30-19)**
Bütün tender təklifləri 20 000 AZN məbləğində “Tender Təminatı” ilə birgə təqdim olunmalıdır.
Yuxarıda istinad olunan ünvan(lar):
**“Azərsu” ASC ofisi, Satınalmaların təşkili və müqavilələrin idarə olunması şöbəsi.**
**Kimə: Satınalmaların təşkili və müqavilələrin idarə olunması şöbəsinin rəisi İlqar Tağıyev.**
**Telefon/Faks: + 994 12 431-47-67 (10-33) və (30-19)**
**E-poçt: i.tagiyev@azersu.az və intizam.novruzov@azersu.az**
**Veb səhifəsi: www.azersu.az**

***Tender komissiyası***

*Repeat*

# “Azersu” Open Joint Stock Company
## INVITATION FOR BID

**Financing №: AZ0040**
**NCB- IFB No.: F1/CW /01/2019, Construction of office buildings in 3 regions (Dashkesen, Tartar and Gazakh)**
The Republic of Azerbaijan has received financing proceeds from the Islamic Development Bank (IDB) towards the cost of implementing the National Water Supply and Sanitation Project in 6 regions. It is intended that part of the proceeds will be applied to eligible payments under the contract for Construction of office buildings in 3 regions (Dashkesen, Tartar and Gazakh).
The Azersu Open Joint Stock Company now invites sealed bids from eligible bidders for the Construction of office buildings in 3 regions (Dashkesen, Tartar and Gazakh) consisting of, but not limited to, the followings:
**Construction of office buildings**
a) Construction of office building in Dashkesen;`
b) Construction of office building in Tartar;
c) Construction of office building in Gazakh.
Selection of the winner will be conducted through post qualification procedures specified in the IDB Guidelines for Procurement under IDB Financing (May 2009), which can be found at the website: www.isdb.org and is open to all bidders from eligible IDB Member Countries, as defined in the guidelines.
Interested eligible bidders may obtain further information from and inspect the bidding documents at Azersu OJSC office from Mr. Ilgar Tagiyev, Head of Procurement and Contract Management Division. Address: Azersu OJSC, 67 Moscow Avenue, 3nd floor, Baku, Republic of Azerbaijan, Telephone: + 994 12 4314767 (10-33), Electronic mail address: i.tagiyev@azersu.az and intizam.novruzov@azersu.az
A complete set of bidding documents may be purchased by interested bidders on the submission of a written application to the above and upon payment of a non-refundable fee of 500 (five hundred) AZN or 300 (three hundred) USD.

| | |
|---|---|
| **Beneficiary's Name:** | **“AZERSU” OJSC** |
| **INTP:** | **9900001751** |
| **Beneficiary's Bank:** | **Kapital Bank of Azerbaijan Republic, Nasimi branch 1** |
| **INTP:** | **9900003611** |
| **Local currecy account №:** | **AZ65AIIB33070019441100216111** |
| **Forein currency account №:** | **AZ55AIIB33170018401100216111** |
| **Code:** | **200112** |
| **SWIFT Code:** | **AIIBAZ2X** |

Bids must be delivered to the above office on or before 16:00 Baku time on 31.05.2019 and must be accompanied by a bid security in amount of 30 000 AZN.
Bids will be opened in the presence of bidders' representatives who choose to attend at 16:00 Baku time on 31.05.2019 the offices of Azersu OJSC, 67 Moscow Avenue, Baku, Azerbaijan, 3nd Floor, Procurement and Contract Management Division.

***Tender Commission***

*Repeat*

# “Azersu” Open Joint Stock Company
## Invitation for Bids

**Name of Country:** Republic of Azerbaijan
**Project:** National Water Supply and Sanitation Project in 6 regions
**Loan No.:** AZ0040
**Contract Title:** Supply of project maintenance equipment and machinery in 4 regions (Gadabey, Tartar, Dashkesen and Gazakh).
**Reference No.** (as per Procurement Plan): NCB_ F2/S/02/2019
The Republic of Azerbaijan has receivedfinancing from the Bank toward the cost of the National Water Supply and Sanitation Project in 6 regionsand intends to apply part of the proceeds toward payments under the contract for Supply of project maintenance equipment and machinery in 4 regions (Gadabey, Tartar, Dashkesen and Gazakh).
The Azersu Open Joint Stock Company now invites sealed bids from eligible bidders for Supply of project maintenance equipment and machinery in 4 regions (Gadabey, Tartar, Dashkesen and Gazakh).
Bidding will be conducted through the National Competitive Bidding (NCB) procedures as specified in the Bank's Guidelines: Procurement of Goods and Works under Islamic Development Bank Financing (“Procurement Guidelines”), and is open to all eligible bidders as defined in the Procurement Guidelines. In addition, please refer to paragraphs 1.6 and 1.7 setting forth the Bank's policy on conflict of interest.
Interested eligible bidders may obtain further information from Mr. Ilgar Tagiyev, Head of Procurement and Contract Management Division and inspect the bidding documents during office hours [09:00 to 18:00 hours] at the address given below:
**Azersu OJSC, 67 Moscow Avenue, Baku, Azerbaijan, 3nd Floor, Procurement and Contract Management Division.**
A complete set of bidding documents in English with Azerbaijani translation may be purchased by interested eligible bidders upon the submission of a written application to the address below and upon payment of a nonrefundable fee of 500 (five hundred) AZN or 300 (three hundred) USD. The method of payment will be bank transfer to the following account:

| | |
|---|---|
| **Beneficiary's Name:** | **“AZERSU” OJSC** |
| **INTP:** | **9900001751** |
| **Beneficiary's Bank:** | **Kapital Bank of Azerbaijan Republic, Nasimi branch 1** |
| **INTP:** | **9900003611** |
| **Local currecy account** | **№: AZ65AIIB33070019441100216111** |
| **Forein currency account** | **№: AZ55AIIB33170018401100216111** |
| **Code:** | **200112** |
| **SWIFT Code:** | **AIIBAZ2X** |

The document will be sent by mail or may be obtained from Agency office.
Bids must be delivered to the address belownot later than:
**16:00 Baku time on 31.05.2019**
**Azersu OJSC office, Procurement and Contract Management Division.**
**Address: Azersu OJSC, 67 Moscow Avenue, 3nd floor, Baku, Republic of Azerbaijan,**
**Telephone: + 994 12 4314767 (10-33) and (30-19)**
Electronic bidding will not be permitted. Late bids will be rejected. Bids will be publicly opened in the presence of the bidders' designated representatives and anyone who choose to attend at the address below:
**At 16:00 Baku time on 31.05.2019**
**Azersu OJSC office, Procurement and Contract Management Division.**
**Address: Azersu OJSC, 67 Moscow Avenue, 3nd floor, Baku, Republic of Azerbaijan,**
**Telephone: + 994 12 4314767 (10-33) and (30-19)**
All bids must be accompanied by a “Bid Security” in amount of 20 000 AZN.
The address(es) referred to above is(are):
**Azersu OJSC office, Procurement and Contract Management Division.**
**Attn: Mr. Ilgar Tagiyev, Head of Procurement and Contract Management Division.**
**Tel/Fax: + 994 12 4314767 (10-33).**
**E-mail: i.tagiyev@azersu.az and intizam.novruzov@azersu.az**
**Web site: www.azersu.az**

***Tender Commission***

# B İ L D İ R İ Ş

“Azərişıq” ASC tərəfindən 19.03.2019-cu il tarixdə **Xəzər rayonu Binə qəsəbəsində “Binə Aqro” MMC-yə məxsus istixana kompleksinin elektrik təchizatı üzrə işlərin satın alınması** məqsədilə keçirilmiş açıq tenderdə Tender komissiyasının qərarına əsasən qalib elan olunmuş **“AZCONSTRUCTION” MMC** ilə satınalma müqavilələri bağlanmışdır.

***Tender komissiyası***

Azercell

## “Azercell Telekom” MMC-nin korporativ abunəçilərinin nəzərinə

16 iyun 2019-cu il tarixdən etibarən korporativ abunəçilər üçün təqdim edilən “Bizklub” proqramı dayandırılır. Müvafiq olaraq “Bizklub” üzvləri arasında edilən zənglərə tətbiq edilən güzəştlərdən yararlanmaq mümkün olmayacaq. Korporativ abunəçilər şirkətdaxili zənglərə (hər bir abunəçinin öz adına rəsmiləşdirilən nömrələr arasında edilən zənglər) tətbiq edilən güzəştlərdən yararlanmaqda davam edəcəklər.

# B İ L D İ R İ Ş

“Azərişıq” ASC tərəfindən 15.03.2019-cu il tarixdə **Abşeron rayonu 1 nömrəli Hövsan Zeytunçuluq sovxozunun ərazisində yerləşən bağların suvarma nasoslarının elektrik təchizatı işlərinin satın alınması** məqsədilə keçirilmiş açıq tenderdə Tender komissiyasının qərarına əsasən qalib elan olunmuş **“AZCONSTRUCTION” MMC** ilə satınalma müqavilələri bağlanmışdır.

***Tender komissiyası***

# B İ L D İ R İ Ş

“Azərişıq” ASC tərəfindən 15.03.2019-cu il tarixdə **Ucar rayonunun Şilyan kəndi ərazisində yerləşən aqroparkın xarici elektrik təchizatı işlərinin satın alınması** məqsədilə keçirilmiş açıq tenderdə Tender komissiyasının qərarına əsasən qalib elan olunmuş **“ENERJİQURAŞDIRMA-H” MMC** ilə satınalma müqavilələri bağlanmışdır.

***Tender komissiyası***

# B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 19.03.2019-cu il və 09.04.2019-cu il tarixli nömrələrində “Azərsu” ASC-nin Dövlət büdcəsi vəsaiti hesabına LOT 1 - Nəqliyyat vasitələrinin və xüsusi texnikanın satın alınması və LOT 2 - Qəza bərpa maşınlarına quraşdırılacaq avadanlıqların satın alınması məqsədilə dərc edilmiş açıq tenderdə iştirakçıların rəsmi müraciətlərini nəzərə alaraq, təkliflərin qəbulu vaxtı uzadılaraq 29 may 2019-cu il, zərflərin açılışı isə 30 may 2019-cu il saat 16:00-a təyin edilmişdir.

Əlaqələndirici şəxslər: İlqar Tağıyev (431-47-67/1033) və İntizam Novruzov (431-47-67/3019).

***Tender komissiyası***

## Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatası
## Təlim və Maarifləndirmə Mərkəzinin təlim inkişaf strategiyasının hazırlanması xidmətinin satın alınması ilə bağlı
## *kotirovka sorğusu elan edir*

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər Palatanın inzibati binasına - Bakı şəhəri, Bülbül pr. 27 ünvanına müraciət edə bilərlər (əlaqələndirici şəxs: Ələmqulu Quliyev, telefon: (+99412) 493-50-58/346; faks: +99412 498-12-14).
Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyən şəxslər imzalanmış və möhürlənmiş kotirovka təkliflərini (əlavə olaraq qiymət cədvəli və şərtlər toplusunda göstərilən sənədlər) 20 may 2019-cu il saat 17:00-dan gec olmamaq şərti ilə təqdim etməlidirlər. Tender proseduru Bakı şəhəri, Bülbül pr. 27 ünvanında, Palatanın inzibati binasının 3-cü mərtəbəsində 21 may 2019-cu il saat 11:00-da başlanacaqdır. Təlim və Maarifləndirmə Mərkəzinin təlim inkişaf strategiyasının hazırlanması xidmətinin müddəti 1 (bir) həftə, şərtlər toplusunda göstərilən qrafikə uyğun yerinə yetirilməlidir. Kotirovka sorğusunda tələblərə cavab verən iştirakçılardan ən aşağı qiymət təqdim etmiş malgöndərən qalib hesab olunacaqdır. Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 9053
Sifariş 1591
Qiyməti 40 qəpik